3 avqust 2018-ci il
№29 (8795)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**ADMİU-nun yeni rektoru kollektivə təqdim olunub**
⇨səh.2

**Ötən ay Təhsil Nazirliyinə 9329 müraciət daxil olub**
⇨səh.2

**Azərbaycan Respublikasının Əməkdar müəllimi Asif Cahangirova açıq məktub**
⇨səh.5

**"Sehrli" çubuq uşaqlara proqramlaşdırmanın əsaslarını öyrədəcək**
⇨səh.7

# Səmərəli seçim mərhələsi

### 20853 namizədə yeddi mindən çox vakant yer təklif olunur



Müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanı mərhələsi başa çatıb. İyulun 16-dan start verilən bu mərhələdə 19 fənn - Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan dili, ibtidai sinif, ingilis dili, alman dili, riyaziyyat, informatika, təsviri incəsənət, rus dili, rus dili və ədəbiyyatı, fransız dili, musiqi, tarix, kimya, fizika, texnologiya, biologiya, fiziki tərbiyə, coğrafiya üzrə test imtahanları keçirilib. İmtahanlarda namizədlərə ixtisaslarına uyğun olaraq ümumtəhsil məktəblərinin fənn proqramının məzmunu üzrə 40, metodika, təlim strategiyaları üzrə 10 və məntiqə aid 10 sual təqdim edilib.

#### Test mərhələsi başa çatdı

Test mərhələsində 39 min 163 namizədin iştirak etdiyini vurğulayan Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu nəzdində İnsan Resursları Mərkəzinin rəhbəri Murad Camalzadə "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində bildirib ki, 13 gün ərzində keçirilən test imtahanlarında ən yüksək nəticə olaraq riyaziyyat fənni üzrə 60 bal qeydə alınıb. İmtahanlarda iştirak edən namizədlərdən 4612 nəfər 80 faizdən, 18613 nəfər 60 faizdən yüksək nəticə göstərib.

⇨Ardı səh.2

# Məktəb mühitinə psixoloji dəstək

### "Məktəblinin dostu" layihəsinin Psixoloji Mərkəzinin əsas çətinliyi valideynlərin əlçatan olmamasıdır

Uşaq psixologiyasının formalaşmasında ailənin, ailənin olduğu qədər məktəbin və müəllimin rolu var. Günün yarısını məktəbdə keçirən şagirdə sinif yoldaşlarının, onunla bərabər yuxarı və aşağı siniflərdə təhsil alan uşaqların mümkün təsirini görməzdən gəlmək mümkün deyil. Axı, müsbət və ya mənfi olmağından asılı olmayaraq, mühit uşağın davamiyyətinə, təhsilinə və hətta bütövlükdə həyatına təsir göstərir.

Bütün bunları nəzərə alaraq, "Məktəblinin dostu" layihəsi öz fəaliyyətində şagirdlərin psixologiyasına xüsusi önəm verir. Onları nəinki mütəmadi müşahidə altında tutmaqla psixologiyalarındakı dəyişikliyi vaxtında təyin etməyə çalışır, müəllim və valideynlərin şagirdlərin dəyişən davranışında rolunu aşkara çıxararaq həmin amillə mübarizə aparır, eyni zamanda, şagirdlərlə birbaşa təmasda olan kadrları seçərkən psixoloji məqamlara xüsusi diqqət yetirirlər. Bunun nəticəsidir ki, məktəblinin dostları seçilərkən nəinki pedaqoji ixtisaslı kadrlara, həm də psixoloqlara üstünlük verilir. Düzdür, onların hamısı psixoloq deyil, ancaq psixoloji testlərdən uğurla keçənlər arasından seçilənlərdir. Seçənlər isə 32 məktəbdə fəaliyyət göstərən "Məktəblinin dostu" layihəsinin Psixoloji Mərkəzinin psixoloqlarıdır. Burada onlar 3 nəfərdir. Məktəblinin dostlarının bir çağırışı ilə məktəblərə gedən, şagirdlərin qarşılaşdığı ən xırda problemə belə biganə yanaşmayan, ən kiçik məsələni dərindən araşdırıb hərtərəfli dəyərləndirən psixoloqlar - Aydan Əzimzadə, Nilufər İsmayılova və Mehriban Verdiyeva.

#### Psixoloji Mərkəz elə böyüklər üçün də cəlbedicidir

Psixoloji Mərkəz Bakı şəhəri 150 nömrəli tam orta məktəbdə yerləşir. Bu 3 psixoloq bir otağa sığışsa da, fəaliyyət göstərmələri üçün əlavə iki otaq da ayrılıb.

Otaqlardan biri nisbətən böyükdür. Psixoloqlar buradan təlimlər, seminarlar keçirərkən, iştirakçı sayının çoxluğu ilə fərqlənən müzakirələrin təşkili zamanı istifadə edirlər.

Olduğumuz otaq isə ayrı-ayrı köşələrə bölünüb. Divarlarını maraqlı təsvirlərin bəzədiyi, müxtəlif rəngarəng oyuncaqlar, rəsmlərlə zəngin bu otaq nəinki uşaqlar, elə böyüklər üçün də cəlbedicidir.

Ortada stullar dairəvi formada düzülüb. Bir kənarda qarşılıqlı söhbət üçün düzənlənən yumşaq mebellər qoyulub. Başqa bir köşəyə masa yerləşdirilib.

⇨Ardı səh.8

# Təhsil - indiki nəslin gələcəyə olan borcu

Yay tətilinin artıq yarısı geridə qalır. Valideynlər narahat və gərgin, məktəb ərəfəsi qayğılarla dolu avqusta qədəm qoymaqdadırlar. Nə qədər ki, məktəbli forması barədə düşünmək, dəftər-qələm almaq üçün ailə büdcəsini müzakirə etmək vaxtı yetişməyib, bizim də tarixi-fəlsəfi mövzulara toxunmaq imkanımız var. Beləliklə, məktəb nə vaxt və necə meydana gəlib?

Qədim vaxtlardan insanlar qruplar halında yaşamağa çalışıblar. Bu, ilk növbədə təhlükəsizlik və asan ov əldə etmək niyyəti ilə edilirdisə, digər tərəfdən də ailə, qrup başçısının həyatdan köçməsindən sonra əldə edilmiş bacarıq və müşahidələri gələcək nəslə ötürmək ehtiyacından doğurdu. Qrup ənənələri və dəyərlərinin itməməsi üçün uşaqları nələrəsə öyrətmək lazım idi. Bax beləcə öyrənmək ehtiyacı yarandı. Yeni nəslin təmsilçiləri qrupun təcrübəsinə yiyələnmək üçün öyrənməli idilər. Tarixçilər hesab edir ki, məhz bu amil təhsilin məktəbdən daha qədim tarixə malik olduğunun göstəricisidir.

#### Məktəb zərurəti

Yazı kəşf edildikdən sonra məktəbin ortaya çıxması tarixi zərurət oldu. Bizim üçün indi saatlarla kompüterin arxasında istədiyimiz mətni yazmaq, diplom, dissertasiya işlərini müdafiə etmək adi reallıqdır. Qədimdə isə hərfin və yazının meydana gəlməsi təhsilin yeni bir mərhələyə qədəm qoymasının göstəricisi oldu. Ailə və yaxud kiçik qruplar tam və hərtərəfli təhsili təmin edə bilməzdi, buna görə də məktəb tipli nəsə olmalı idi.

Ümumiyyətlə, məktəbin ilk dəfə nə vaxt və harada yarandığına dair səhih məlumat yoxdur. Məlumdur ki, 5-6 min il əvvəl Misirdə, ola bilsin, Çin və digər yerlərdə məktəblər olub. Yalnız XVIII əsrdə belə bir qənaət ictimai şüura hakim olmağa başladı ki, təhsil insanı inkişaf etdirə, cəmiyyətin isə rifah halına müsbət təsir göstərə bilər. Hər bir uşağın təhsil almaq hüququnun olduğu cəmi bir əsr bundan əvvəl qəbul edilməyə başlanılıb.

İndi bizim övladlarımızdan bəziləri düşünür ki, məktəb darıxdırıcıdır, bizi oxumağa və sevmədiyimiz işi görməyə məcbur edirlər. Halbuki bu günün özündə elə yerlər var ki, orada təhsil almaq yalnız imkanlı ailənin uşaqları üçün mümkündür. Kasıb ailələrin uşaqları isə ömürlərini yazıb oxuya bilmədən başa vurmaqla keçirirlər. Təbii ki, təhsil yoxdursa, gələcəkdən danışmaq, istedadından istifadə etmək, layiqli iş tapmaq və bacarıqlarını həyata keçirməyi arzulamaq əbəsdir. Adətən belə cəmiyyətlərdə imkansız ailələrin uşaqları arasında oxumaq istəyi daha çox olur. Dövlətin maddi imkanları məhdud olduğundan belə ailələrin övladlarının təhsilinə könüllülər, xeyriyyə qurumları, xüsusi fondlar köməklik göstərirlər. Təhsil kapital tələb edir.

⇨Ardı səh.5




# Milli varlığımızın əsas rəmzi

### Ana dilimizin qorunması hər birimizin vətəndaşlıq borcudur

Səh.6

# Peşə təhsili müəssisələrinə sənəd qəbulu başlayır

Avqustun 6-dan etibarən 2018-2019-cu tədris ili üzrə "ASAN peşə" layihəsi çərçivəsində dövlət peşə təhsili müəssisələrinə sənəd qəbuluna start veriləcək.

Təhsil Nazirliyi və "ASAN xidmət"in birgə həyata keçirdiyi "ASAN peşə" layihəsinin əsas məqsədi dövlət peşə təhsili müəssisələrinə qəbulun rahatlığını və obyektivliyini təmin etməkdir.

Dövlət peşə təhsili müəssisələrinə ərizə qəbulu avqustun 26-dək "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində ödənişsiz formada həyata keçiriləcək. Ərizə qəbulu üçün şəxsiyyət vəsiqəsi və təhsil haqqında sənəd (şəhadətnamə və ya attestat) tələb olunur.

Bakı, Sumqayıt, Gəncə şəhərlərində və Abşeron rayonunda yerləşən peşə təhsili müəssisələrinə həm dövlət, həm də ödənişli əsaslarla qəbul "ASAN xidmət" tərəfindən aparılacaq. Mingəçevir şəhəri, Bərdə, Masallı, Sabirabad, Quba və Qəbələ rayonları üzrə peşə təhsili müəssisələrinə dövlət hesabına qəbul müvafiq "ASAN xidmət" mərkəzlərində aparılacaq.

"ASAN xidmət" mərkəzlərinin fəaliyyət göstərmədiyi şəhər və rayonlar üzrə dövlət peşə təhsili müəssisələrinə sənəd vermək istəyən şəxslər istənilən "ASAN xidmət"ə və müvafiq təhsil müəssisələrinə müraciət edə bilərlər.

Dövlət peşə təhsili müəssisələrinə sənəd qəbulu prosesində vətəndaşlar 10 ixtisas seçə bilər. Müraciət edənlərin sərbəst seçimi əsasında dövlət peşə təhsili müəssisələri, onların ixtisasları müəyyən edilir və istədikləri ardıcıllıqla təsdiqlənir. Dövlət peşə təhsili müəssisələrinə qəbul şəhadətnamə və ya attestat üzrə müvafiq fənlərin orta balı nəzərə alınmaqla həyata keçirilir.

# "Yay məktəbi"nin II mərhələsi

Paytaxtda təşkil olunan "Yay məktəbi"nin II mərhələsinə start verilib.

Avqust ayında "Yay məktəbi" VlI-VIII sinif şagirdləri üçün nəzərdə tutulur.

Qeyd edək ki, məktəblilərin yay tətili günlərinin səmərəli, maraqlı və əyləncəli təşkili məqsədilə "Məktəblinin dostu" pilot layihəsi çərçivəsində paytaxt məktəblərinin V-VI sinif şagirdləri üçün iyulda reallaşdırılan "Yay məktəbi" başa çatıb.

Ödənişsiz qaydada VII-VIII sinif şagirdləri üçün təşkil olunan "Yay məktəbi" Bakı şəhəri üzrə "Məktəblinin dostu" layihəsinin tətbiq olunduğu 12 məktəbi əhatə edir.

"Yay məktəbi" zamanı 1000-ə yaxın şagird üçün təlim, seminar və informativ sessiyalar keçirilir, müxtəlif idman yarışları, əyləncəli saatlar təşkil olunur.

"Yay məktəbi"nin əsas məqsədi şagirdlərə yay istirahəti dövründə keyfiyyətli təhsil imkanları yaratmaq və əyləncəli proqramlar təşkil etməklə, intellektual və sosial aktiv gənclərin-gələcəyin liderlərinin formalaşdırılmasından ibarətdir.

## RƏSMİ XRONİKA



- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 1-də Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimində iştirak ediblər. Prezident İlham Əliyev sonra əlil və şəhid ailələrinin üzvləri ilə görüşüb və çıxış edib.
- Ölkə başçısı İlham Əliyev avqustun 1-də Yuli Solomonoviç Qusmanın "Dostluq" ordeni ilə, Azərbaycanın kino xadimlərinin ordenlər və medalla təltif edilməsi, bir qrup kino xadiminə fəxri adların verilməsi, 3 nəfərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında sərəncamlar imzalayıb.
- İyulun 31-də Prezident İlham Əliyev Əsgər Adil oğlu Rəsulovun Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi təyin edilməsi haqqında sərəncam imzalayıb.
- Dövlət başçısı İlham Əliyev iyulun 31-də İrina Aleksandrovna Viner - Usmanovanın "Dostluq" ordeni ilə, dövlət qulluqçularının orden və medallarla təltif edilməsi, 2 nəfərə fəxri adların verilməsi haqqında sərəncamlar imzalayıb.
- İyulun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Ölkə başçısı İlham Əliyev iyulun 30-da Ceyran Emin qızı Mahmudovanın Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru təyin edilməsi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Prezidenti İlham Əliyevin 30 iyul 2018-ci il tarixli sərəncamı ilə Vüqar Şəmsəddin oğlu Səfərov Naxçıvan Muxtar Respublikasının Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. Ölkə başçısı İlham Əliyevin həmin gün imzaladığı digər sərəncamla Mirsənani Mirsaleh oğlu Seyidov Naxçıvan Muxtar Respublikasının Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilib.
- İyulun 30-da dövlət başçısı İlham Əliyev Həsən Məmmədovun 80 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev iyulun 27-də Mərakeşin Kralı VI Məhəmmədə bu ölkənin milli bayramı - Taxt-Tac Günü, İsveçrə Konfederasiyasının Prezidenti Alan Berseyə ölkəsinin milli bayramı, Benin Respublikasının Prezidenti Patris Talona bu ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubları ünvanlayıb.

## Təhsil Nazirliyində görüş

Təhsil nazirinin müavini Firudin Qurbanov Moskva Şəhəri Mədəniyyət Departamentinin direktor müavini Vladimir Filippovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüş zamanı Azərbaycan Respublikasının təhsil müəssisələri ilə Moskva şəhərində yerləşən təhsil müəssisələri arasında əməkdaşlığın cari vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə edilib. Bundan başqa, Moskva şəhərində təhsil sahəsində həyata keçirilən innovativ layihələrdə və təşkil olunan düşərgələrdə azərbaycanlı şagirdlərin iştirakı ilə bağlı fikir mübadiləsi aparılıb.

## Ötən ay Təhsil Nazirliyinə 9329 müraciət daxil olub

Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinə ("Qaynar xətt" xidməti, telefon: 146) daxil olan zənglərlə və Vətəndaşların Qəbulu Mərkəzində 2018-ci ilin iyul ayında vətəndaşlara göstərilən xidmətlərlə bağlı statistika açıqlanıb.

Qeyd olunan müddət ərzində həmin mərkəzlərə ümumilikdə 9329 müraciət daxil olub.

Statistikaya əsasən, Telefon Məlumat Mərkəzində 4350 zəng qəbul edilib.

Vətəndaşların Qəbulu Mərkəzində isə bu dövrdə 4979 vətəndaşa xidmət göstərilib.

Telefon Məlumat Mərkəzinə və Vətəndaşların Qəbulu Mərkəzinə daxil olmuş müraciətlərin (əsasən sorğu xarakterli olub) əksəriyyəti dərhal cavablandırılıb və operativ həll olunub. Vətəndaşların Qəbulu Mərkəzində 1014 sənəd (620 ərizə, 373 məktub, 21 digər sənəd) qəbul olunub və qeydiyyata alınıb.

Daxil olan müraciətlər daha çox müəllimlərin işə qəbulu və yerdəyişməsi, tələbələrin yerli ali təhsil müəssisələrinə köçürülməsi və bərpası, ali təhsil sənədlərinin (diplomların) tanınması (nostrifikasiya) və uşaqların ümumtəhsil məktəblərinin 1-ci siniflərinə qəbulu ilə bağlı məsələləri əhatə edib.

Qeyd edək ki, Telefon Məlumat Mərkəzinə ötən ay ərzində ən çox həftənin çərşənbə axşamı (1148 müraciət), bazar ertəsi (970 zəng) günləri, əsasən, saat 10:00-dan 13:00-dək və 14:00-dan 16:00-dək müraciət olunub. Vətəndaşların Qəbulu Mərkəzinə isə ən çox həftənin bazar ertəsi (1340 müraciət) və çərşənbə axşamı (1143 müraciət) günləri, əsasən, saat 10:00-dan 12:00-dək və 14:00-dan 15:00-dək müraciət edilib.

# ADMİU-nun yeni rektoru kollektivə təqdim olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru vəzifəsinə təyin edilmiş Ceyran Mahmudova iyulun 31-də təhsil müəssisəsinin kollektivinə təqdim olunub.

Təhsil nazirinin müavini Firudin Qurbanov Prezidentin sərəncamını tədbir iştirakçılarının diqqətinə çatdırıb. O, Universitetin tarixindən, yaşatdığı ənənələrdən, son illər təhsil sahəsində əldə etdiyi nailiyyətlərdən danışıb, Ceyran Mahmudovanı yeni təyinatı münasibətilə təbrik edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

ADMİU-nun rektoru C.Mahmudova tədbir iştirakçılarını salamlayaraq, yeni təyinatına görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib və ona göstərilmiş yüksək etimadı doğrultmaq üçün bütün bilik və bacarığından istifadə edəcəyini vurğulayıb.

Məlumat üçün qeyd edək ki, Ceyran Emin qızı Mahmudova 1964-cü ildə Bakı şəhərində anadan olub. 1971-1982-ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində təhsil alıb. 1982-1987-ci illərdə təhsilini Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının tarixinəzəriyyə fakültəsində davam etdirib.



1991-ci ildən 2017-ci ilədək Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında dosent, professor vəzifəsində çalışıb. AAK-ın Sənətşünaslıq və Memarlıq üzrə ekspert şurasının üzvü, 3 monoqrafiya, ali məktəblər üçün 2 dərs, orta məktəb müəllimləri üçün 2 metodik vəsaitin, 50-dən çox elmi məqalənin müəllifidir.

2017-ci ildən ADMİU-nun "Musiqi sənəti" fakültəsinin dekanı vəzifəsində çalışıb.

Dövlət başçısının 30 iyul 2018-ci il tarixli sərəncamı ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru təyin edilib.

# Səmərəli seçim mərhələsi

## 20853 namizədə yeddi mindən çox vakant yer təklif olunur

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

M.Camalzadənin sözlərinə görə, ən yüksək aktivlik riyaziyyat və fiziki tərbiyə fənləri üzrə müşahidə olunub: "Riyaziyyat və fiziki tərbiyə fənləri üzrə aktivlik 90 faizdən çoxdur. Test imtahanlarında ən yüksək nəticə göstərən namizədlər riyaziyyat, kimya, tarix, coğrafiya müəllimi olmaq istəyənlərdir".

M.Camalzadənin sözlərinə görə, avqustun 1-də test imtahanının nəticələri namizədlərin şəxsi səhifələrinə göndərilib.

Qeyd edək ki, müəllimlərin işə qəbulu 4 mərhələdən ibarətdir. Elektron ərizədəki göstəricilərin qiymətləndirilməsi, test imtahanı mərhələləri arxada qalıb. Artıq üçüncü - vakant yerlərin seçilməsi mərhələsi başlayıb.

Vakansiya seçimi avqustun 3-dən başlayır və ayın 8-dək davam edəcək. Vakansiyalar Miq.edu.az və İnsan Resursları Mərkəzinin rəsmi facebook səhifəsi vasitəsilə elan edilib. Müsabiqəyə çıxarılmış yeddi mindən çox vakant yerin 89 faizi Azərbaycan bölməsini, 11 faizi isə rus bölməsini əhatə edir.

Ümumi vakansiyalara nəzər saldıqda məlum olur ki, 59 faiz Azərbaycan və rus bölmələri üzrə həvəsləndirmə tədbiri tətbiq olunan ümumi təhsil müəssisələrinin, 41 faiz isə həvəsləndirmə tədbiri tətbiq olunmayan ümumi təhsil müəssisələrinin payına düşür.

### Kim seçə bilər?

Beləliklə, bu gündən yeddi mindən çox vakant yer uğrunda 20853 namizədin mübarizəsi start götürür.

Bəs, vakansiya seçimi mərhələsində kimlər iştirak edəcək?

M.Camalzadənin sözlərinə görə, bu mərhələyə qatılacaq 20853 namizəd arasında builki müsabiqənin test mərhələsində iştirak edənlərlə yanaşı, 2017-2018-ci tədris ili üçün müəllimlərin işə qəbulu üzrə müsabiqənin nəticəsi ilə 10 ildən az olmayaraq müddətsiz müqavilə ilə fasiləsiz olaraq işləmiş, 3 ildən çox olmayaraq işdən azad olunmuş şəxslər isə diaqnostik qiymətləndirmə imtahanlarındakı nəticəsi ilə müsabiqəyə qatıla biləcəklər.

İştirakçılardan vakansiya seçimi mərhələsinə qatılmaq üçün test mərhələsində minimum 36 bal toplamaları tələb edilir. Lakin müvafiq keçid bal vakant yerdən və fəndən asılı olaraq dəyişir. M.Camalzadənin sözlərinə görə, musiqi, təsviri incəsənət, fiziki tərbiyə fənləri (Azərbaycan və rus bölmələri) üzrə həvəsləndirmə tədbiri tətbiq edilən ümumi təhsil müəssisələri üçün 36, tətbiq edilməyən ümumi təhsil müəssisələri üçün 42 bal, digər fənlərdə isə həvəsləndirmə tədbirləri tətbiq edilən ümumi təhsil müəssisələri üçün 36, tətbiq edilməyən ümumi təhsil müəssisələri üçün isə 48 bal tələb olunur.

M.Camalzadə müsahibəsində bildirib ki, Azərbaycan bölməsi ilə müqayisədə rus bölməsi üzrə imtahanlarda namizədlərin nəticələri nisbətən zəifdir.

### Vakansiya mərhələsinin iştirakçılarına tələblər

Vakansiya seçimi mərhələsində iştirak edəcək namizədlərdən bəzi tələblər də var. Belə ki, onlar elektron ərizələrinə orta ixtisas və ali təhsil müəssisələrinin diplomlarını və əlavələrini də yükləməlidirlər. M.Camalzadə bunun səbəbini belə izah edib: "Orta ixtisas və ali təhsil müəssisələrinin diplomlarının və əlavələrinin elektron ərizəyə yüklənməsi barədə tələb namizədlərin ixtisaslarının pedaqoji, həmçinin sənədlərinin dövlət nümunəli olub-olmamasının müəyyənləşdirilməsi məqsədi daşıyır".

Builki məzunlar isə elektron ərizələrinə müvafiq orta ixtisas və ya ali təhsil müəssisəsini bitirdiklərini təsdiq edən arayış yükləməlidirlər.

Xatırladaq ki, işə qəbul müsabiqəsi nəticəsində namizədlərin topladığı bal iki tədris ili qüvvədədir və onlar növbəti dərs ili üçün keçirilən müsabiqə zamanı birbaşa vakansiya seçimi mərhələsində iştirak edə bilərlər.

M.Camalzadə onu da qeyd edib ki, namizədlər vakansiya mərhələsində diqqətli olmalı, səmərəli seçim etməlidirlər.

Tədris ili ərzində yeni vakansiyaların yaranma ehtimalını da nəzərə alsaq, vakansiyalara müddətli müqavilə ilə müəllimlərin işə götürülməsi prosesi davamlı olacaq. Bu səbəbdən müvafiq keçid balı toplayan, lakın vakant yerə yerləşdirilməyən namizədlər narahat olmamalıdırlar.

Müsabiqənin sonuncu - müsahibə mərhələsinin 13-18 avqust tarixlərində keçirilməsi planlaşdırılır. Həmin mərhələdə təqdim olunacaq mövzular miq.edu.az saytı və İnsan Resursları Mərkəzinin facebook hesabı vasitəsilə elan ediləcək.

Müəllimlərin işə qəbulu müsabiqəsində iştirak etmiş, hazırda işləyib-işləməməyindən, stajından asılı olmayaraq, bütün namizədlər müsahibə mərhələsində iştirak etməlidir.

Onu da qeyd edək ki, müsabiqə iştirakçılarına avqustun 28-dək İnsan Resursları Mərkəzinə şəxsən yaxınlaşaraq şəxsiyyəti təsdiq edən sənədin əslini təqdim etməklə yerləşdiyi vakant yerdən imtina etmək imkanı verilir.

Avqust ayının 28-dək yerləşdirildiyi vakant yerdən imtina etməyən namizədlər müddətli müqavilə ilə müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak edə bilməyəcəklər.

Xatırladaq ki, müəllimlərin işə qəbulu üzrə müsabiqə başa çatdıqdan sonra ilk dəfə olaraq İnsan Resursları Mərkəzi tərəfindən proqram təminatı tətbiq olunmaqla müddətli müqavilə ilə müəllimlərin işə götürülməsi prosesinə başlanılacaq.

# "Təhsil avtobusu-2018" 2000 km səyahət edib

"Azərbaycan üçün Öyrət" təhsil proqramı çərçivəsində artıq üçüncü ildir ki, həyata keçirilən "Təhsil avtobusu - 2018" yay məktəbi layihəsi başa çatıb.

İyulun 17-dən start verilən layihə çərçivəsində Bakı-Quba-Masallı-Şəmkir-Şəki-Qəbələ-Bakı marşrutu üzrə səyahət edilib və 5 bölgənin 18 kənd, 17 şəhər məktəbindən dərs göstəricisi orta və zəif olan, ümumilikdə 140-a yaxın şagird iştirak edib. Bu məktəblər sırasında ucqar kəndlərdə tikilən modul tipli məktəblər də olub.

Yay məktəbi müddətində şagirdlər "Mənim uğurlu karyeram", "Kommunikasiya", "Robotlarla iş", "Sığorta" adlı təlimlərdə iştirak ediblər və "Nə? Harada? Nə zaman?" intellektual oyunu, "Code Tusi" komanda oyunlarına qatılıblar. Həmçinin hər bir bölgədə şagirdlər üçün "Ekspo 2025 Bakı" layihəsinin təqdimatı keçirilib.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun həyata keçirilən layihə keyfiyyətli təhsil üçün bərabər imkanların yaradılmasına xidmət edən təhsil proqramıdır.

Qeyd edək ki, 2016 və 2017-ci illərdə keçirilən "Təhsil avtobusu" yay məktəbləri çərçivəsində 16 gün ərzində 4000 km yol qət edilib, Bakı və 10 rayonun (Lənkəran, Quba, Gəncə, Şəki, Masallı, Cəlilabad, Sabirabad, Mingəçevir, İsmayıllı, Zaqatala) 12 şəhər və 13 kənd-qəsəbə məktəbi, 22 ali və orta ixtisas təhsili müəssisəsinin 400-dən çox şagird və tələbəsi cəlb olunub, təlimçi və ekspertlər tərəfindən 150 akademik saatdan çox həcmdə təhsil proqramları və komanda-öyrədici oyunları keçirilib.



Yay məktəbi Təhsil Nazirliyinin təşkilatçılığı, "Engin" LTD MMC, "Kapital Bank", "Ekspo 2025 Bakı" layihəsinin əsas dəstəyi, "Bakcell", "GoldenPay", "Microsoft Azərbaycan" və "PAŞA Sığorta" şirkətlərinin dəstəyi, "1news.az", "Azərbaycan İntellektual Klublar Assosiasiyası", "ARB TV", "ASAN xidmət", "Bir" Tələbə-Könüllü proqramı, "Code Tusi", "Edumap" Təhsil portal, "Edutainment.az", "Engineering For Kids", "SABAH" qrupları, "Şərq-Qərb" ASC, "Təhsil TV və "Youth Inc." Sahibkarlıq Proqramının tərəfdaşlığı ilə keçirilir.

Layihənin rəsmi informasiya dəstəkçiləri "1news.az", "ARB TV" və "Təhsil TV"-dir.

# Tam orta təhsil səviyyəsində təhsilin təmayüllər üzrə təşkil olunduğu ümumi təhsil müəssisələrinin 2018-2019-cu dərs ili üçün tədris planlarının təsdiqi haqqında

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Tam orta təhsil səviyyəsində təhsilin təmayüllər üzrə təşkil olunduğu ümumi təhsil müəssisələrində təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.10-1-ci və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2018-2019-cu dərs ilində tam orta təhsilin təmayüllər üzrə təşkil olunduğu ümumi təhsil müəssisələrinin X-XI sinifləri üçün tədris planları və "Tədris planlarına dair qeydlər" (1-15 nömrəli əlavələr) təsdiq edilsin.

**2.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov) və Maliyyə şöbəsi (R.Orucov) tədris planlarının çap olunub vaxtında yerlərə çatdırılmasını təmin etsinlər.

**3.** İnformasiya şöbəsi (E.Məmmədov) bu əmrin əlavələrlə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*20 iyul 2018-ci il*

*Azərbaycan Respublikası təhsil nazirinin 20 iyul 2018-ci il tarixli, F-526 nömrəli əmri ilə təsdiq edilib*

## 2018-2019-cu dərs ilində tam orta təhsilin təmayüllər üzrə təşkil olunduğu ümumi təhsil müəssisələrinin X-XI sinifləri üçün tədris planları

**2018-2019-cu dərs ili üçün texniki təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris Azərbaycan dilində)**

**Əlavə 1**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Azərbaycan dili | 3 | 3 |
| 2. | Xarici dil | 4 | 4 |
| 3. | İkinci xarici dil | 1 | 1 |
| 4. | Riyaziyyat | 8 | 8 |
| 5. | İnformatika | 1 | 1 |
| 6. | Fizika | 5 | 5 |
| 7. | Kimya | 4 | 4 |
| 8. | Ədəbiyyat | 1 | 1 |
| 9. | Azərbaycan tarixi | 1 | 1 |
| 10. | Fiziki tərbiyə | 2 | 2 |
| 11. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **31** | **31** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **33** | **33** |

**2018-2019-cu dərs ili üçün texniki təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris rus dilində)**

**Əlavə 2**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Rus dili | 3 | 3 |
| 2. | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 |
| 3. | Xarici dil | 4 | 4 |
| 4. | İkinci xarici dil | 1 | 1 |
| 5. | Riyaziyyat | 8 | 8 |
| 6. | İnformatika | 1 | 1 |
| 7. | Fizika | 5 | 5 |
| 8. | Kimya | 4 | 4 |
| 9. | Ədəbiyyat | 1 | 1 |
| 10 | Azərbaycan tarixi | 1 | 1 |
| 11. | Fiziki tərbiyə | 2 | 2 |
| 12. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **33** | **33** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **35** | **35** |

**2018-2019-cu dərs ili üçün riyaziyyat-iqtisadiyyat təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris Azərbaycan dilində)**

**Əlavə 3**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Azərbaycan dili | 3 | 3 |
| 2. | Xarici dil | 4 | 4 |
| 3. | İkinci xarici dil | 1 | 1 |
| 4. | Riyaziyyat | 8 | 8 |
| 5. | İnformatika | 1 | 1 |
| 6. | Coğrafiya | 5 | 5 |
| 7. | Azərbaycan tarixi | 3 | 3 |
| 8. | Ümumi tarix | 2 | 2 |
| 9. | Ədəbiyyat | 1 | 1 |
| 10. | Fiziki tərbiyə | 2 | 2 |
| 11. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **31** | **31** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **33** | **33** |

**2018-2019-cu dərs ili üçün riyaziyyat-iqtisadiyyat təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris rus dilində)**

**Əlavə 4**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Rus dili | 3 | 3 |
| 2. | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 |
| 3. | Xarici dil | 4 | 4 |
| 4. | İkinci xarici dil | 1 | 1 |
| 5. | Riyaziyyat | 8 | 8 |
| 6. | İnformatika | 1 | 1 |
| 7. | Coğrafiya | 5 | 5 |
| 8. | Azərbaycan tarixi | 3 | 3 |
| 9. | Ümumi tarix | 2 | 2 |
| 10. | Ədəbiyyat | 1 | 1 |
| 11. | Fiziki tərbiyə | 2 | 2 |
| 12. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **33** | **33** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **35** | **35** |

**2018-2019-cu dərs ili üçün humanitar təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris Azərbaycan dilində)**

**Əlavə 5**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Azərbaycan dili | 5 | 5 |
| 2. | Ədəbiyyat | 4 | 4 |
| 3. | Xarici dil | 5 | 5 |
| 4. | İkinci xarici dil | 1 | 1 |
| 5. | Riyaziyyat | 4 | 4 |
| 6. | İnformatika | 1 | 1 |
| 7. | Azərbaycan tarixi | 5 | 5 |
| 8. | Ümumi tarix | 3 | 3 |
| 9. | Fiziki tərbiyə | 2 | 2 |
| 10. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **31** | **31** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **33** | **33** |

**2018-2019-cu dərs ili üçün humanitar təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris rus dilində)**

**Əlavə 6**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Rus dili | 5 | 5 |
| 2. | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 |
| 3. | Ədəbiyyat | 4 | 4 |
| 4. | Xarici dil | 5 | 5 |
| 5. | İkinci xarici dil | 1 | 1 |
| 6. | Riyaziyyat | 4 | 4 |
| 7. | İnformatika | 1 | 1 |
| 8. | Azərbaycan tarixi | 5 | 5 |
| 9. | Ümumi tarix | 3 | 3 |
| 10. | Fiziki tərbiyə | 2 | 2 |
| 11. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **33** | **33** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **35** | **35** |

**2018-2019-cu dərs ili üçün təbiət təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris Azərbaycan dilində)**

**Əlavə 7**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Azərbaycan dili | 3 | 3 |
| 2. | Xarici dil | 4 | 4 |
| 3. | İkinci xarici dil | 1 | 1 |
| 4. | Riyaziyyat | 4 | 4 |
| 5. | İnformatika | 1 | 1 |
| 6. | Fizika | 4 | 4 |
| 7. | Biologiya | 5 | 5 |
| 8. | Kimya | 4 | 4 |
| 9. | Ədəbiyyat | 1 | 1 |
| 10. | Azərbaycan tarixi | 1 | 1 |
| 11. | Fiziki tərbiyə | 2 | 2 |
| 12. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **31** | **31** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **33** | **33** |

**2018-2019-cu dərs ili üçün təbiət təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris rus dilində)**

**Əlavə 8**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Rus dili | 3 | 3 |
| 2. | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 |
| 3. | Xarici dil | 4 | 4 |
| 4. | İkinci xarici dil | 1 | 1 |
| 5. | Riyaziyyat | 4 | 4 |
| 6. | İnformatika | 1 | 1 |
| 7. | Fizika | 4 | 4 |
| 8. | Biologiya | 5 | 5 |
| 9. | Kimya | 4 | 4 |
| 10. | Ədəbiyyat | 1 | 1 |
| 11. | Azərbaycan tarixi | 1 | 1 |
| 12. | Fiziki tərbiyə | 2 | 2 |
| 13. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **33** | **33** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **35** | **35** |

**2018-2019-cu dərs ili üçün texniki və riyaziyyat-iqtisadiyyat təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris Azərbaycan dilində)**

**Əlavə 9**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Azərbaycan dili | 3 | 3 |
| 2. | Xarici dil | 4 | 4 |
| 3. | İkinci xarici dil | 1 | 1 |
| 4. | Riyaziyyat | 7 | 7 |
| 5. | İnformatika | 1 | 1 |
| 6. | Fizika | 3 | 3 |
| 7. | Kimya | 3 | 3 |
| 8. | Azərbaycan tarixi | 2 | 2 |
| 9. | Ümumi tarix | 2 | 2 |
| 10. | Coğrafiya | 3 | 3 |
| 11. | Ədəbiyyat | 1 | 1 |
| 12. | Fiziki tərbiyə | 2 | 2 |
| 13. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **33** | **33** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **35** | **35** |

**2018-2019-cu dərs ili üçün texniki və riyaziyyat-iqtisadiyyat təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris rus dilində)**

**Əlavə 10**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Rus dili | 3 | 3 |
| 2. | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 |
| 3. | Xarici dil | 4 | 4 |
| 4. | İkinci xarici dil | 1 | 1 |
| 5. | Riyaziyyat | 7 | 7 |
| 6. | İnformatika | 1 | 1 |
| 7. | Fizika | 3 | 3 |
| 8. | Kimya | 3 | 3 |
| 9. | Azərbaycan tarixi | 2 | 2 |
| 10. | Ümumi tarix | 2 | 2 |
| 11. | Coğrafiya | 3 | 3 |
| 12. | Ədəbiyyat | 1 | 1 |
| 13. | Fiziki tərbiyə | 2 | 2 |
| 14. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **35** | **35** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **37** | **37** |

**2018-2019-cu dərs ili üçün texniki və təbiət təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris Azərbaycan dilində)**

**Əlavə 11**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Azərbaycan dili | 3 | 3 |
| 2. | Xarici dil | 4 | 4 |
| 3. | İkinci xarici dil | 1 | 1 |
| 4. | Riyaziyyat | 6 | 6 |
| 5. | İnformatika | 1 | 1 |
| 6. | Fizika | 4 | 4 |
| 7. | Kimya | 4 | 4 |
| 8. | Biologiya | 4 | 4 |
| 9. | Ədəbiyyat | 1 | 1 |
| 10. | Azərbaycan tarixi | 1 | 1 |
| 11. | Fiziki tərbiyə | 2 | 2 |
| 12. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **32** | **32** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **34** | **34** |

**2018-2019-cu dərs ili üçün texniki və təbiət təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris rus dilində)**

**Əlavə 12**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Rus dili | 3 | 3 |
| 2. | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 |
| 3. | Xarici dil | 4 | 4 |
| 4. | İkinci xarici dil | 1 | 1 |
| 5. | Riyaziyyat | 6 | 6 |
| 6. | İnformatika | 1 | 1 |
| 7. | Fizika | 4 | 4 |
| 8. | Kimya | 4 | 4 |
| 9. | Biologiya | 4 | 4 |
| 10. | Ədəbiyyat | 1 | 1 |
| 11. | Azərbaycan tarixi | 1 | 1 |
| 12. | Fiziki tərbiyə | 2 | 2 |
| 13. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **34** | **34** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **36** | **36** |

**2018-2019-cu dərs ili üçün humanitar və riyaziyyat-iqtisadiyyat təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris Azərbaycan dilində)**

**Əlavə 13**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Azərbaycan dili | 5 | 5 |
| 2. | Ədəbiyyat | 3 | 3 |
| 3. | Xarici dil | 4 | 4 |
| 4. | İkinci xarici dil | 1 | 1 |
| 5. | Riyaziyyat | 6 | 6 |
| 6. | İnformatika | 1 | 1 |
| 7. | Azərbaycan tarixi | 4 | 4 |
| 8. | Ümumi tarix | 3 | 3 |
| 9. | Coğrafiya | 3 | 3 |
| 10. | Fiziki tərbiyə | 2 | 2 |
| 11. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **33** | **33** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **35** | **35** |

**2018-2019-cu dərs ili üçün humanitar və riyaziyyat-iqtisadiyyat təmayüllü siniflərin nümunəvi tədris planı**
**X-XI siniflər (tədris rus dilində)**

**Əlavə 14**

| Sıra № | Fənlər | Həftəlik saatların miqdarı | |
|---|---|---|---|
| | | X sinif | XI sinif |
| 1. | Rus dili | 5 | 5 |
| 2. | Ədəbiyyat | 3 | 3 |
| 3. | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 |
| 4. | Xarici dil | 4 | 4 |
| 5. | İkinci xarici dil | 1 | 1 |
| 6. | Riyaziyyat | 6 | 6 |
| 7. | İnformatika | 1 | 1 |
| 8. | Azərbaycan tarixi | 4 | 4 |
| 9. | Ümumi tarix | 3 | 3 |
| 10. | Coğrafiya | 3 | 3 |
| 11. | Fiziki tərbiyə | 2 | 2 |
| 12. | Çağırışaqədərki hazırlıq | 1 | 1 |
| **Cəmi:** | | **35** | **35** |
| **Dərsdənkənar məşğələlər** | | **2** | **2** |
| **Yekun:** | | **37** | **37** |

**Əlavə 15**

## Tədris planlarına dair qeydlər

**1.** Təmayül sinifləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin 2.6-cı bəndinə uyğun olaraq, şagirdlərin sayı ən azı 20 (iyirmi) nəfər olmaqla komplektləşdirilir.

**2.** Şagirdlərin sayı 20 (iyirmi) və daha çox olan siniflər aşağıdakı fənlərin tədrisində 2 (iki) qrupa bölünür:
2.1. Tədris rus dilində aparılan siniflərdə "Azərbaycan dili - dövlət dili kimi".
2.2. Tədris dilindən asılı olmayaraq "Xarici dil", "İkinci xarici dil", "Fiziki tərbiyə".

**3.** Fənn müəllimlərinin rəyi, şagirdlərin fənlər üzrə təlim nailiyyətləri və onların meyil-maraqları, buraxılış imtahanlarının nəticələri, valideynlərin razılığı nəzərə alınmaqla təmayül siniflərinin ilkin komplektləşdirilməsi iyun ayının sonunadək başa çatdırılır.

**4.** Şagirdlərin hazırlıq səviyyəsinə görə, zəruri ehtiyac olduğu halda, məktəb Pedaqoji Şurasının qərarına əsasən, təmayül fənlərindən hər hansı birinə ("texniki" təmayül üzrə "Riyaziyyat", "Fizika" və "Kimya", "riyaziyyat-iqtisadiyyat" təmayülü üzrə "Riyaziyyat", "Coğrafiya" və "Azərbaycan tarixi", "humanitar" təmayül üzrə "Azərbaycan dili", "Xarici dil", "Azərbaycan tarixi" və "Ümumi tarix", "təbiət" təmayülü üzrə "Biologiya", "Kimya" və "Fizika") digər bir təmayül fənni hesabına 1 (bir) saat artıq vaxt verilə bilər.

**5.** Müəyyən olunmuş təmayüllər üzrə tədris planlarında dərsdənkənar məşğələlərə ayrılmış 2 (iki) saatdan 1 (bir) saatı bütün şagirdlər cəlb olunmaqla "Nitq mədəniyyəti", digər 1 (bir) saatı isə "İqtisadiyyatın əsasları" fakültativ kursunun tədrisinə ayrılır.

**6.** Bütün təmayüllər üzrə siniflərdə təsdiq edilmiş cədvəl əsasında "Nitq mədəniyyəti" fakültativ kursu, "texniki", "humanitar", "təbiət", "texniki və təbiət" təmayüllü siniflərdə "İqtisadiyyatın əsasları" fakültativ kursu dərsdənkənar vaxtlarda, "riyaziyyat-iqtisadiyyat", "texniki və riyaziyyat-iqtisadiyyat", "humanitar və riyaziyyat-iqtisadiyyat" təmayüllü siniflərdə "İqtisadiyyatın əsasları" fakültativ kursu isə dərs cədvəlinə salınmaqla tədris olunur.

**7.** "Nitq mədəniyyəti" və "İqtisadiyyatın əsasları" fakültativ kursları Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş proqram əsasında tədris edilir.

**8.** Bir qayda olaraq, "Nitq mədəniyyəti" fakültativ kursu tədris Azərbaycan dilində olan siniflərdə Azərbaycan dili və ədəbiyyat, tədris rus dilində olan siniflərdə rus dili və ədəbiyyat müəllimləri, "İqtisadiyyatın əsasları" fakültativ kursu isə coğrafiya müəllimləri tərəfindən tədris olunur.

# "Valideynlər təhsilə önəm verdiklərini övladlarına hiss etdirməlidirlər"

## Şabran rayon Çayqaraqaşlı kənd ümumi orta məktəbinin direktoru Şəhriyar Həsənov hesab edir ki, ucqar kəndlərdə buna daha çox ehtiyac var

**Məktəbşünas**



**Gülər HÜSEYNOVA**

Rayon ümumtəhsil məktəblərinin direktorlarının rəhbərlik etdikləri təhsil müəssisələrinin uğur hekayəsini, onların tədrisin və idarəçiliyin təşkilində həm pedaqoq, həm də rəhbər kimi düşüncələrini ictimaiyyətə çatdırmaq məqsədilə "Məktəbşünas" rubrikasını təqdim edirik.

Rubrikamızın qonağı Şabran rayon Çayqaraqaşlı kənd ümumi orta məktəbinin gənc direktoru Şəhriyar Həsənovdur.

*- Məktəbin idarə edilməsi nədən başlayır?*

- Məktəbin idarə edilməsi şəxsin öz üzərindəki idarəçiliyindən başlayır. Yəni, şəxs öz üzərindəki idarəçilikdə ədalətli və sistemli olmalıdır ki, bunu idarə etdiyi kontingent üzərində də həyata keçirə bilsin. Əsas düstur budur. Cəmiyyətdə belə bir təsəvvür var ki, məktəb direktoru qeyri-leqal yolla da olsa, məktəb daxilində istədiyi şəxsi işdən azad edə, şagirdə qarşı fiziki cəzadan başlayaraq, təhqirlərə qədər bütün vasitələrdən istifadə edə bilər. 5 illik pedaqoji və 7 aylıq idarəçilik fəaliyyətim var. Bu müddətdə valideynlərlə söhbətlərimizdə övladlarının neqativ hərəkətləri zamanı fiziki cəzanın labüdlüyü anlamında valideynlər "əti sizin, sümüyü bizim" deyirlər. Biz isə onlara "əti də, sümüyü də özlərinin, ruhu, mənəviyyatı, təhsili isə hər birimizin" deyirik. Hətta məşhur pedaqoqlardan Y.A.Komenski, A.S.Makarenko da fizki cəzadan istifadənin bəzən yaxşı effekt verdiyini qeyd edirdilər. Amma bu, hər çətin vəziyyətdə fiziki cəzaya əl atmağa əsas verirmi? Təbii ki, yox. Məktəb rəhbəri səbrlə, daha düzgün yol axtararaq məsələyə yanaşmalıdır. Az əvvəl də qeyd etdiyim kimi, məktəb idarəçiliyi ilk əvvəl rəhbərin öz üzərindəki hakimiyyətindən, idarəçiliyindən başlayır.

*- Sizin məktəbin uğur strukturu necə formalaşıb?*

- XXI əsrdə ölkələrin inkişaf göstəriciləri artıq ordularının gücü, təbii sərvətlərinin çoxluğu ilə deyil, təhsilin inkişaf səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı da məktəbin uğur strukturundan asılıdır. Məktəb daxilində müəllim-şagird-valideyn əməkdaşlığı nə qədər sistemli qurulursa, uğur da o qədər öz axarı ilə gələcəkdir. Hazırda rəhbəri olduğum ucqar kənd məktəbində artıq 6-cı ildir ki, Azərbaycan dilini tədris edirəm. Tədrisə, şagirdlərin təhsilinə önəm verildiyini görən valideynlər hər nə qədər kənd təsərrüfatı işləri olsa da, övladlarının proqram materialını daha yaxşı mənimsəmələri məqsədilə boş vaxtlarımda təmənnasız şəkildə onlarla məşğul olmağım üçün şərait yaradırlar. Təsadüfi deyil ki, ötən tədris ilində şagirdlərimiz buraxılış imtahanlarının nəticələrinə görə Şabran rayonu üzrə Azərbaycan dilindən 2-ci yeri tutmuşdular.

Ümumiyyətlə, valideynlər övladlarının təhsili barədə maraqlanmalı, xüsusən ucqar kəndlərdə təhsilə önəm verdiklərini övladlarına hiss etdirməlidirlər. Məhz bu halda müəllim-şagird-valideyn əməkdaşlığından danışmaq olar.

*- Rəhbərlik etdiyiniz məktəbdə müəllimə münasibət, qiymətləndirmə, rəğbətləndirmə hansı formadadır?*

- İngilis yazıçısı C.Lokkun "Ağ lövhə" nəzəriyyəsi var. Həmin nəzəriyyəyə görə, uşaq beyni təmiz, ağ lövhədir və sən orada istədiyini yaza bilərsən. Təbii ki, bu "ağ lövhə" insanın daha çox bioloji varlıq olduğu dönəmlərə aiddir və əksər hallarda ahıl yaşlı insanlarda o lövhəyə yazmağa boş yer tapmırsan. Təhsil Nazirliyi 3 ildir ki, diaqnostik qiymətləndirməni həyata keçirir. 60 və bu yaş üzəri olan müəllimlərin diaqnostik qiymətləndirmədə iştirak etmələrini təmin etməkdə problemlə qarşılaşıram. Çünki həmin "ağ lövhə" artıq dolub və yaşlı müəllimlərimiz bu diaqnostik qiymətləndirmənin təhsilin inkişafına xidmət etdiyini qəbul etməkdə çətinlik çəkirlər. Təbii ki, idarəçilik olan yerdə problemlər də olacaq və bu problemləri səbr və yaşlı nəslə hörmətlə yanaşaraq həll etməyə çalışırıq.

Bəzən elə şagird-müəllim konflikti, təlim-tərbiyə problemi olur ki, bu barədə hər hansı həll yolunu əzbərlədiyimiz normativ-hüquqi aktlarda, məcəllələrdə tapmırıq və belə hallarda yaşlı müəllimlərimizin təcrübələrinə üz tuturuq.

Ümumiyyətlə, kollektiv rəhbərliyin gözləntilərini bilməlidir. Məsələn, məktəb rəhbəri pedaqoji kollektivin hər hansı üzvündən Edisonun, Eynşteynin edə bildiklərini yox, ən azı təhsil sahəsində ölkədaxili və ya beynəlxalq təcrübənin komponentlərini tətbiq etmək üçün təkliflər gözləyir. Yəni, məktəb daxilində o müəllimə daha çox güzəşt və rəğbətləndirmə tətbiq edirik ki, öz təklifləri ilə məktəbin, təhsilin inkişafı üçün yeni fikirlər irəli sürsün.

*- Məktəbdə fəaliyyətin monitorinqinin aparılması zərurətini necə dəyərləndirirsiniz?*

- Son zamanlar məktəb idarəçilərinin dərs saatları ilə təmin olunma məsələsi daha çox sosial şəbəkələr üzərindən müzakirələrə səbəb olur. Belə ki, direktor və müavinlərinin 6,12,18 saat dərslə təmin olunması müzakirə mövzusudur. Təbii ki, məktəb idarəçilərinin də pedaqoji bacarıqlarının itməməsi və tədris bacarıqları ilə pedaqoji kollektivə nümunə ola bilmələri üçün minimum dərs saatlarının qalması daha yaxşı olardı. Bu halda məktəbdə fəaliyyətin monitorinqini aparmaq üçün kifayət qədər zaman yaranar, tədrisin, təlim-tərbiyənin keyfiyyətini izləmək daha rahat olardı.

*- Müvəffəqiyyətin əsası nədir?*

- Müvəffəqiyyətin əsası nə istədiyini bilmək və istədiyin nəsə uğrunda mübarizə aparmaqdır. Mübarizə anlayışı bir az pafoslu səslənə bilər, amma insan ömrünün əksər hallarda məhrumiyyətlər, çətinliklərlə uğurlu, xoş günlərin qovuşuğu olduğunu nəzərə alsaq, məqsədə çatmaq üçün mübarizə aparmaq vacib anlayışa çevrilir. Napoleon Bonapartın mübarizə və məğlubiyyət anlayışlarına maraqlı yanaşması var. O deyirdi: "Mübarizə aparırsansa, qalib gəlmək ehtimalın var, əgər mübarizə aparmırsansa, çoxdan uduzmusan". Biz də dərsdənkənar tədbirlərdə, fərdi söhbətlərimizdə şagirdlərə bunları aşılamağa çalışır, onların müvəffəqiyyət qazanmaları üçün maddi və ya mənəvi problemlərlə qarşılaşacaqları təqdirdə məqsədlərindən əl çəkməməyi tövsiyə edirik.

Bu tədris ilinin mart ayında Təhsil Nazirliyinin elan etdiyi təhsildə inkişaf və innovasiyalar üzrə 2-ci qrant müsabiqəsinə buraxılış siniflərində xarici dilin tədrisi ilə bağlı layihə təqdim etmişdim. Lakin layihənin ideyası və praktik əhəmiyyəti nə qədər yaxşı olsa da, ifadə etməkdə müəyyən nöqsanları olduğuna görə qəbul edilməmişdi. Məqsədə çatmaq üçün təhsil və texnologiyalar istiqamətində xidmət etmiş nümunəvi insanların həyat yoluna nəzər saldıqda, təhsilimizin inkişafına xidmət edən belə müsabiqələrdə iştirak etməkdən növbəti illlərdə imtina etmək və ya həvəsdən düşmək həmin nümunəvi insanlara qarşı haqsızlıq olardı. Cəmiyyətin, təhsil müəssisəsinin inkişafı üçün ən doğru vasitəni seçmək gərəkdir və bu halda ədalətli müvəffəqiyyətdən danışmaq olar.

**Azərbaycan Xalq Cümhuriyyəti - 100**

# "Türk qılıncı parlayanda tarixə istiqlal yazır"

## 23 aylıq fəaliyyətin nəticəsində 637 ibtidai, 23 orta ixtisas və 1 ali məktəb



**Elmira ALLAHVERDİYEVA,**
*Sumqayıt şəhər 11 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

"...Hürriyyət!... O nə qüvvədir ki, yalnız zikri belə inşirahi-dərunə, səfayi-qəlbə baqi oluyor. Zehinləri, fikirləri, xəyalları, bəşərin bütün ruh və mənəviyyatını ülviyyata sövq eliyor!... Yalnız zikrini eşidən insanların qanadlanıb uçacaqları, balalara pərvaz edəcəkləri gəliyor!... O nə qüvvədir ki, onun yolunda neçə-neçə fikirlər, zəkalar, dühalar... hər növ iztirabları, hər növ əza və cəfayi qəbul etdilər...".

Əlibəy Hüseynzadə 1905-ci ildə "Həyat" qəzetində belə yazırdı.

Azadlıq! Bəli, elə bir şirin neymət ki, onu dadan heç vaxt əsarəti qəbul etməz. Azadlıq! İnsana elə bir qürur verir ki, zəif vücudlar belə əyilməz, nəhəng, azman olur. Azadlıq! Elə bir amal ki, yolunda ölmək belə ölümsüzlük yaradır.

Azərbaycan xalqının tarixin keşməkeşli, qanlı döngələrində başına nələr gəlmədi?! Yaranışdan mərd, məğrur, yenilməz olan türksoylu xalqımız öz döyüşkənliyi, çərçivələrə sığmazlığı ilə tanındı. Belə bir xalq buxovu, qandalı, əsarəti qəbul edə bilməzdi. Gözəl bir deyim var: "Türk qılıncı parlayanda tarixə istiqlal yazır".

Qəhrəmanlıq səmalarında qanad çalan azad bir qartal qəfəsdə yaşaya bilməz.

Səmanın ənginlikləri uçmağı bacaranlar üçündür. Ancaq böyük güclərin tamah və hakimiyyət hərisliyi öz sözünü dedi: Şah babamız Şah İsmayıl Xətainin yaratdığı böyük bir dövlət xırda-xırda tikələrə böləndüyündən xalqımızın tarixinə qanla yazılan Gülüstan və Türkmənçay müqavilələri azadlığımızı əlimizdən aldı. 2 əsrə qədər rus əsarətində olduq. Dərdimizi, qarğışımızı araya sərhəd kimi düşüb vətəni bölən Araza-günahsız bir çaya ünvanladıq, haray çəkdik:

*Ulduzları saya-saya,*
*İnsanlar yol açır Aya,*
*Mənim bu taydan o taya*
*Əlim çatmır sənə, qardaş.*

Haqsızlıqların qurbanı olduq, sərvətimiz talandı, dilimiz, mənəviyyatımız, cismimiz əsarət altında oldu. Təkcə ruhumuzu, azad doğulub azad yaşamış xalqın ruhunu əsir etmək mümkün olmadı. Kül altında gizli-gizli közərən qığılcımlar 1918-ci ildə alova çevrildi. Xalq öz müstəqilliyinə qovuşdu. Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti quruldu.

Yeni yaranan milli dövlət hansı çətinliklərlə üzləşdi, nələrdən keçdi, bunu tariximizin şanlı səhifələrindən öyrənə bilsək də, bu günlərdə 100 illik yubileyini qeyd etdiyimiz AXC-nin 23 aylıq hakimiyyəti dövründə görülən işləri sadalamağa başlasaq, bu işlərin 23 aya necə sığdığını tam mənası ilə təsəvvür edə bilmərik. Dağılan, istismar olunan iqtisadiyyatı bərpa etmək, düşmənlərdən (təkcə əsarətinə qarşı çıxdığı rus imperiyasının deyil, həm də onların əlaltıları - evimizin içindəki qaniçənlərdən - ermənilərdən) qorumaq üçün ordu quruculuğundan, Azərbaycanın səsini dünyada eşitdirmək üçün siyasi durumu möhkəmlətməkdən , mədəniyyətin müxtəlif sahələrinin inkişafına təkan verməkdən və ən əsası təhsil sistemini yenidən qurmaqdan ibarət olan çox vacib işlərin həyata keçirilməsi gərgin əmək, yorulmaz fəaliyyət, məsuliyyətli təşkilatçılıq tələb edirdi. Bunların öhdəsindən gəlmək üçün insanın ürəyində vətən, xalq sevgisi olmalıydı. M.Ə.Rəsulzadənin, F.Köçərlinin, F.Xoyskinin, Ə.Şıxlinskinin və daha kimlərin, kimlərin ürəyindəki sevgi kimi.

Hər hansı bir dövlətin gələcəyə yolu düzgün qurulmuş təhsil sistemindən keçir. Yeni qurulan dövlətin ilk işlərindən biri də elə bu oldu. Əsarətdə olduğu dövrdə Azərbaycanda böyük şəhərlərdə rus məktəbləri, rusdilli təhsil mövcud idi. Bir də ayrı-ayrı vətənpərvərlərin çətinliklərlə, mübarizə apara-apara açdığı məktəblər.

1918-ci il mayın 28-də qurulan respublikanın vətənpərvər başçılarının ilk qərarlarından biri Xalq Maarif Nazirliyini yaratmaq və məktəbləri milliləşdirmək (28 avqust 1918-ci il) oldu. Həmin ilin 27 iyun tarixli qərarına əsasən isə Azərbaycan dili dövlət dili elan olundu. Beləliklə, bütün ibtidai siniflərdə təhsil ana dilində həyata keçirilməyə başlandı. Bakı, Gəncə, Şuşa, Qazax kimi böyük şəhərlərdə pedaqoji kadrlar yetişdirmək məqsədilə pedaqoji kurslar fəaliyyətə başladı. "Nina" qızlar məktəbi qızlar üçün gimnaziya ilə əvəz olundu. 23 aylıq hakimiyyəti dövründə AXC hakimiyəti 637 ibtidai, 23 orta ixtisas və 1 ali məktəb açdı.

Bir ali məktəb - Bakı Dövlət Universiteti idi, 1919-cu il 15 noyabrda bu ali məktəbdə dərslər başlandı. Ali təhsil almaq üçün ürəyi alışıb-yanan, ancaq xaricdə oxumaq üçün maddi imkanı olmayan və "daşa dönmüşlərə əks eyləmədi fəryadım" deyərək arzusunu ürəyinin dərinliklərində gizlədən gənclərin qarşısında elmə gedən yol açıldı. Vaxtilə Moskva, Sankt-Peterburq, Kiyev, Odessa şəhərlərində rus dilində, İstanbulda türkcə, Fransada fransız dilində təhsil alan Vəzirovlar, Haqverdiyevlər, Nərimanovlar, Hüseynzadələr, Çəmənzəminlilər, Zərdabilər vətənimizin ilk ali təhsil ocağının açılmasını, görəsən, nə qədər arzulamışdılar ?!

Bakı Dövlət Universitetinin açılması haqqında qərar veriləndə hamını bir sual düşündürürdü: "Görəsən, təhsil hansı dildə olacaq? Deyilənə görə, bu münasibətlə keçirilən iclasda ali məktəbin ilk qaranquşları-tələbələr və müəllim heyəti iclas zalında oturub həyəcanla çıxış edənləri dinləyir, müzakirədə iştirak edirdilər. İclasın gedişində rəyasətdə oturmuş İvanov soyadlı bir rus professoru söz alıb təklif edir ki, təhsil rus dilində olsun. Fikrini belə əsaslandırır ki, Azərbaycanın ali məktəbində Azərbaycan dilində dərs deyə biləcək öz milli kadrları yoxdur. Əgər təhsil rus dilində olsa, Rusiyadan alimlər dəvət eləmək olar (Yenə də Azərbaycanın müstəqilliyi ilə barışa bilməyən, bu xalqın torpağına, sərvətinə göz dikənlərin, təhsilmizə təcavüzü deyildimi İvanovun təklifi?). Özündən müştəbeh İvanov qalib kimi yerinə keçir. Zaldakıların başına sanki su ələnir. Öz ana dilində dərs deməyi, öz ana dilində təhsil almağı arzulayan azərbaycanlıların ürəyi qan ağlayır. Başları sinələrinə əyilir. Elə bu zaman onu tanıyanların nəzərində savadlı olduğu kimi, həm də vətənpərvər olan Şaxtaxtlı (adını bilmirəm) soyadlı bir müəllim ayağa durur. Söz alıb xitabət kürsüsünə çıxanda bayaqdan ümidsizliklə susanların üzündə canlanma yaranır. Bilirlər ki, dağdan ağır bu ziyalı bir çıxış yolu tapacaq.

Şaxtaxtlı sözə başlayıb beş dəqiqə ingilis dilində danışır. Üzünü İvanova tutub soruşur:

- Məni başa düşdünüz?

İvanov: "yox" deyir. Bu dəfə natiq beş dəqiqə alman dilində danışır. Yenə İvanovdan soruşur:

- Məni başa düşdünüz?

İvanov "yox" mənasında başını yelləyir, 3-cü dəfə fransızca danışıb yenə İvanova müraciət edir:

- İndi necə, məni anladınız?

Qəzəbindən çuğundur kimi qızaran İvanov dinmir. Bu dəfə rus dilində danışan Şahtaxtlı yenə də üzünü İvanova tutub:

- İndi məni başa düşdünüz, - deyir.

Təbii ki, İvanov onu başa düşmüşdü. "Azərbaycanın elmi potensialı, ali məktəbdə dərs deyəcək elmi kadrları yoxdur" deyən və çörəyini yeyib, suyunu içdiyi xalqa həqarətlə baxan bu dırnaqarası alim, demək olar ki, bir neçə dildə dərsini alır və bu Azərbaycan oğlunun, Azərbaycan ziyalısının qarşısında "yox" sözündən başqa heç nə deyə bilmir. Nə desin, axı ? Onda gərək etiraf edəydi ki, balaca sandıqları bu xalqın necə böyük övladları var.

Bütün salon xitabət kürsüsündən düşən alimi ayaq üstə alqışlayır. Hamının nəzərində o, bir qəhrəman idi: Təhsilin Azərbaycan dilində olub-olmaması sanki arxa plana keçmişdi . Hamı ancaq bir şeydən məmnun idi: xalqımıza xor baxanlar öz layiqli cavablarını aldılar.

Təhsilin ana dilində olması haqqında qərar qəbul olundu . Üçrəngli bayrağın dalğalandığı binada öz doğma dilində, öz doğma vətənində təhsil alanların sevinci sonsuz idi. Tələbələrin istifadəsi üçün həmin ilin martında ilk böyük kitabxana açıldı, 89 adda qəzet və jurnal nəşr olundu.

Təhsilin əsas sütunu dərsliklərin yazılması və nəşri işi də nəzərdən qaçmamışdı. Yaradilan dərslik komissiyasının tərkibinə dövrün tanınmış ziyalıları H.Cavid, A.Şaiq, M.Mahmudbəyov, C.Cəbrayılbəyli daxil edilmişdilər. İşlər yavaş-yavaş qaydasına düşür, müstəqil respublikanın addımları daha möhtəşəm, daha inamlı olurdu. Ancaq, təəssüf ki, müstəqilliyimiz yenə də Rusiyanın qırmızı terrorunun qurbanı oldu. Ürəyində Vətən eşqi olanların repressiyası başlandı. Bu dəfə düşmən ruhumuza əl uzatdı, dilimiz, dinimiz əsarət altına alındı. Bizi soy-kökümüzdən qoparmağa cəhd etdilər. Yenə əsarət, qadağalar, zorakılıq... Ancaq unutdular ki, "bir kərə yüksələn bayraq bir daha enməz " və azadlığı bir dəfə dadanlar daha qul ola bilməzlər. Olmadılar da. 1991-ci ildə müstəqilliyimiz bərpa olundu . Müstəqil Azərbaycanımız müstəqilliyini bütün dünyaya bəyan etdi. Artıq böyük güclər Azərbaycanla razılaşmaq məcburiyyətində qaldılar. Elmimiz, mədəniyyətimiz, siyasətimiz Vətənin sərhədlərindən uzaqlarda belə bəyənildi, qəbul olundu. Artıq dünya xalqlarının leksikonunda "Azərbaycan" sözü tez-tez işlənir.

# Azərbaycan Respublikasının Əməkdar müəllimi Asif Cahangirova açıq məktub

**Ənvər ABBASOV,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*



Çox hörmətli Asif Baxış oğlu Cahangirov!

Siz ömrünüzün ilk illərindən ta bu günə qədər 70 ilin tale yükünü daşıya-daşıya gəlmisiniz. Bu möhtəşəm yüksəklikdən Sizin uğurla davam edən bənzərsiz və təkrarsız həyat yolunuz görünür. Bu həyat yolunda nəzərə çarpan və diqqəti cəlb edən hadisələrin ardıcıllığı sadəcə tarixcə deyil, ilahinin Sizin kimi bir insana bağışladığı tale kitabıdır. Onun hər səhifəsində bir yazı var. O yazıların hər birində Siz varsınız. Siz o yazılarla zamanın tale kitabını bütün şəxsiyyətinizlə, mənəviyyatınızla, fəaliyyətinizlə, münasibətlərinizlə bəzəyirsiniz.

Siz Azərbaycanın dilbər guşələrindən biri olan Qarabağda doğulmusunuz. Həmişə azərbaycanlılığınızla, bəy nəslindən olmağınızla qürur hissi keçirirsiniz. Həm də XVIII əsrdən bu günə qədər davam edən bir şəcərənin davamçısı kimi yüksək əxlaq və mənəviyyat missiyasını daşıyırsınız.

Siz bu yüksəkliyi pillə-pillə qazanmısınız. Xankəndində başlayan orta təhsil illərini Sumqayıtda qızıl medalla başa vurmusunuz. Eləcə də Bakı Dövlət Universitetinin kimya fakültəsini uğurla başa çatdırmısınız. Kimyaçı və kimya müəllimi ixtisaslarına yiyələnmisiniz. Respublikamızda peşəkar təhsil işçisi kimi tanınan və uzun illər DQMV Təhsil Şöbəsinin rəhbərlərindən biri olmuş mərhum atanız Baxış müəllimin "Harda işləyirsənsə, həmişə işini sev və onun ustası ol" fikirlərini həyat prinsipinə çevirmisiniz. Orta məktəbdə müəllim, dərs hissə müdiri, direktor, təhsil şöbəsində müdir, Təhsil Nazirliyində bölmə müdiri, idarə rəisi, eləcə də Bakı Şəhər Təhsil İdarəsində və Dünya Bankının ofisində rəhbər vəzifələrdə çalışanda da, son vaxtlar Avropa-Azərbaycan Cəmiyyətində təhsil məsələləri üzrə müşavir işlədiyiniz müddətdə də o sözləri unutmamısınız, həyat prinsipinə çevirmisiniz. Düşünmək, yaratmaq fəaliyyətin yaraşığına çevrilir deyirlər. Həmişə düşüncələrinizdə, addımlarınızda qətiyyətli və inamlı olmusunuz.

Hələ müəllimlik fəaliyyətinə başladığınız 70-ci illərin əvvəllərində həm innovativ ideyalarınızla, həm də qabaqcıl pedaqoq kimi təcrübənizlə təhsil ictimaiyyətinin diqqətini cəlb etmisiniz. Eyni zamanda təlim prosesində şagirdlərin müstəqil düşünmə, təhliletmə, ümumiləşdirmə, aparıcı ideyanı müəyyən etmə və sair bacarıqların formalaşdırılması barədə fikirlərinizlə maraq doğurmusunuz. Bir kimya müəllimi kimi şagirdlərin məntiqi və tənqidi təfəkkürünü formalaşdırmaqla onların idrak fəallığını inkişaf etdirməyi dərslərinizin amalına çevirmisiniz. Bu gün geniş miqyasda yayılmaqda olan fəal dərsin ilkin nümunələrini yaratmısınız. Bu təcrübəni o dövrdə nə qədər qeyri-ənənəvi olsa da, öz zamanın tanınmış alimpedaqoqu, SSRİ Pedaqoji Elmlər Akademiyasının akademiki Y.V.Xodakovun marağına səbəb olub. O, müəllifi olduğu "Prosveşeniya" (Moskva) nəşriyyatında 1976-cı ildə çapdan çıxmış "Prepodavanie neorqaniçeskoy ximii 7-8 klassax" və 1980-ci ildə nəşr olunmuş "Prepodavanie neorqaniçeskoy ximii v sredney şkole" adlı metodik vəsaitlərində Sizin təcrübənizə istinad edib. Heç şübhəsiz, bu gün hər kəs gənc bir müəllimin iş təcrübəsinin keçmiş SSRİ kimi böyük bir ölkə miqyasında bəyənilərək dərsliklərə salınmasının dəyərini aydın təsəvvür edə bilər.

Siz həm Sumqayıt, həm də Bakı şəhərinin təhsil idarələrində, eləcə də Azərbaycan Respublikası Maarif Nazirliyində rəhbər vəzifələrdə çalışdığınız dövrlərdə daim yeniliyə can atmaqla daha mütərəqqi təhsil texnologiyalarının, səmərəli forma, metod və vasitələrin, eləcə də idarəetmə mexanizmlərinin yaradılmasına, onlardan istifadə olunmasına təşəbbüs göstərmisiniz. Belə ki, vaxtı ilə rayon və şəhərlərdə işə düzəlmək istəyən müəllimlərin qeydiyyata alınması ilə bağlı təklif vermisiniz. Həmin təklif qəbul olunmuş, keçmiş SSRİ-də ilk dəfə olaraq müəllimlərin müsabiqə yolu ilə qəbuluna başlanılmışdır. Yaxud Sizin rəhbərliyinizlə 1987-1991-ci illərdə Bakıda təhsil prosesinin psixoloji təminatı üzrə xüsusi sistem yaradılmış və respublikada ilk məktəb psixoloqları 1990-1991-ci tədris ilində keçmiş Bakı Pedaqoji Kadrların İxtisasartırma İnstitutunda hazırlanmış və birinci olaraq 1991-ci ilin sentyabrından Bakının 20-dən çox məktəbində psixoloji xidmət üzrə fəaliyyətə başlanılmışdır. Eləcə də Sizin dəstəyinizlə 1989-cu ildə Bakının 178 nömrəli məktəbində təbiət elmləri fakültəsi yaradılmışdır. "Ekologiya" fənninin proqramı innovativ layihə kimi hazırlanmış, sonralar Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuşdur. Əslində bu təşəbbüs hazırda daha geniş miqyasda yayılan və qlobal təhsil hadisəsinə çevrilən inteqrasiya ilə bağlı çox məsuliyyətli və uğurlu bir addım idi. Eyni zamanda dünya təhsilinin inkişaf tendensiyalarına istinad edərək Azərbaycan təhsilinin gələcək perspektivlərinə töhfə vermək üçün uğurlu təşəbbüs idi.

Bundan əlavə, Sizin təşəbbüsünüzlə 1989-cu ildə Bakı Yaradıcı Müəllimlər İttifaqı təsis olunmuş, onun vasitəsilə bir sıra uğurlu lahiyələr həyata keçirilmişdir. Ümumiyyətlə, Sizin təbiq etdiyiniz idarəetmə modelində qabaqcıl təcrübənin öyrənilməsi və yayılmasına, müəllim və rəhbər təhsil işçilərinin yaradıcı fəaliyyətinin dəstəklənməsinə xüsusi diqqət yetirilirdi. Təhsilin təkmilləşdirilməsi məqsədilə Bakıya tanınmış alimpedaqoqlar, novator müəllimlər, xarici təhsil ekspertləri dəvət olunur, onlarla görüşlər keçirilir, mühazirələr, tematik kurslar, interaktiv mühitdə qarşılıqlı təcrübə mübadilələri təşkil edilirdi.

Azərbaycanda 1999-cu ildən başlayan təhsil islahatları ölkəmizin təhsil tarixində xüsusi bir mərhələni təşkil edir. Bu mərhələ Azərbaycan təhsilinin nəticəyönümlü bir xarakter alması, standart və kurikulumların yaradılması, yeni texnologiya və strategiyaların meydana gəlməsi ilə fərqlənir. Siz hələ Bakı Şəhər Təhsil İdarəsində rəis vəzifəsində çalışarkən, 2001-ci ildə paralel olaraq Dünya Bankının təhsil sahəsində Layihənin İdarəolunması Qrupunun rəhbərliyinə cəlb olunmusunuz. Direktor kimi işlədiyiniz dövrdə ölkəmizin təhsil sahəsindəki islahatçılıq fəaliyyətinə dəstək olan tədbirlər həyata keçirmisiniz. Bu müddətdə Azərbaycan təhsilinin bütün sahələrində vəziyyəti, eləcə də perspektivləri müəyyən etmək üçün Hitendra Piley, Pol Templ, Piter Koul, Fredrik Qolladey, Ksu Di, Rob MkBrayd, Endi Smart, Söner Yıldırım kimi dünyada məşhur olan təhsil üzrə beynəlxalq məsləhətçilərin cəlb olunmasına nail olmusunuz. İşlədiyiniz 2001-2004-cü illərdə təhsil islahatının həyata keçirilməsi vəziyyəti Dünya Bankının audit qrupu (bu qrupa dünyada tanınmış fin pedaqoqu, təhsilşünas, təhsil üzrə beynəlxalq məsləhətçi Pasi Salber rəhbərlik edirdi) tərəfindən aparılmış və "çox qənaətbəxş" qiymətləndirilmişdir. Məlum olduğu kimi, "Çox qənaətbəxş" ("Highly satisfactory") Dünya Bankının qiymətləndirmə şkalasında ən yüksək qiymət hesab olunur.

Tale yükünü daşıya-daşıya ömrünüzü öyrənməyə sərf etmisiniz. Dünyanın 21 ölkəsində 36-ya qədər yüksək səviyyəli təhsil və elmi tədbirlərin iştirakçısı olmusunuz. Həmişə yenilikçi olmaqla yanaşı, həm də yeni ideyaların müəllifi kimi tanınmısınız. İstər respublikada və istərsə də respublikadan kənarda cəmiyyətin müxtəlif məsələləri ilə, xüsusilə də təhsillə bağlı çıxışlar etmisiniz. Bu çıxışlarda daim mütərəqqi ideyalarınızla zamanı qabaqlamağa çalışmısınız. Hələ ötən əsrin 80-ci illərində məktəb islahatlarının yerində saymasının səbəblərini şagirdlərin təlim və tərbiyəsinin didaktik cəhətdən əsaslandırılmış prinsiplərə söykənməməsi, eləcə də ümumtəhsil məktəbinin obyektiv konsepsiyasının olmaması ilə əsaslandırmısınız. Eyni zamanda təlim yükünün azaldılmasının, şagirdlərin yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsinin vacibliyini irəli sürmüsünüz. Bunun üçün təlim prosesində vaxt və imkanların olmasını təklif etmisiniz. Hələ o illərdə yazırdınız ki, "yalnız yaradıcılıq idrakda sevinc hissi yaradır". Siz bu gün də müasir təlim üçün xarakterik olan və şagird inkişafının əsasında duran yaradıcı təfəkkürün formalaşdırılmasını məktəbin mühüm atributlarından biri hesab edirsiniz.

Siz həm də yuxarı siniflərdə həftəlik dərs yükünün 27-28 saat olmasını və bu siniflərdə tədris planlarının onların gələcək peşə fəaliyyəti üçün lazım olan fənlər əsasında hazırlanmasını irəli sürmüsünüz. Dərs proqramlarının uşaqların meyl və maraqlarına uyğun olaraq sistemləşdirilməsinin zəruriliyini vurğulamısınız.

Siz məktəbi cəmiyyətin kiçik modeli adlandırır, orada olan boşluqların, çatışmazlıqların aydın təsəvvür olunmasını və xüsusilə məktəbin inkişafını təmin edə bilən yaradıcı mühitin formalaşdırılmasını, uşaq psixologiyasının ciddi şəkildə nəzərə alınmasını və bütün bunlara əsasən diferensial təlimin qurulmasını vacib hesab edirsiniz.

İndi aktual olan bu pedaqoji məsələnin mahiyyətində dayanan bir vacib cəhət ondan ibarətdir ki, təhsilin hər kəs üçün əlçatan olmasına şərait yaranır. Təhsil alanların fərdi xüsusiyyətləri baxımından ehtiyaclar nəzərə alınır.

Təhsilin məzmunu onun nüvəsidir. Bütün zamanlar üçün belə bir aparıcı fikir həmişə öz qüvvəsini saxlamışdır. Ona görə təhsilin yeniləşdirilməsi prosesində onun məzmununun düzgün qurulması vacib şərt hesab edilir. Siz 90-cı illərin əvvəllərində bu məsələnin əhəmiyyətini xüsusi olaraq vurğulamışdınız: "Təhsilimizin nə məzmunu, nə də həcmi haqqında təsəvvürümüz yoxdur. Çünki bizdə təhsilin məzmun və həcmi müəyyənləşdirilməmiş qalır". Artıq bu gün təhsilin nəticəyönümlü məzmununun yaradılması istiqamətində araşdırmalar aparılır. Yeni səriştə əsaslı standart və kurikulumların hazırlanması sahəsində tədbirlər həyata keçirilir.

Siz ötən əsrin 90-cı illərində şagird şəxsiyyətinin formalaşdırılması, təhsilin humanistləşdirilməsi istiqamətində xeyli araşdırmalar aparmısınız. Bu araşdırmalarda orta təhsilə münasibətin dəyişilməsini, uşaq şəxsiyyətinə, onun meyil və marağına əsaslanan təhsil sisteminə keçilməsini təklif etmisiniz. Həm də bu məsələni humanistləşdirmə müstəvisində həll olunan bir məsələ kimi zəruri saymısınız. Eyni zamanda humanistləşdirməyə demokratikləşdirmə, fərdiləşdirmə, diferensiallaşdırma və inteqrasiyanı ehtiva edən bir anlayış kimi yanaşmısınız. Əslində Sizin irəli sürdüyünüz bu müddəalar nəinki o dövrün, eyni zamanda həm də bu dövrün çox ciddi pedaqoji məsələsidir. Çünki şəxsiyyətin dəyərlər əsasında formalaşdırılması, humanist pedaqoji mühitin yaradılması müasir təhsil konsepsiyamızın mahiyyət və məzmununu təşkil edir.

Azərbaycanın böyük psixoloqu, professor Əbdül Əlizadə müasir Azərbaycan məktəbinin problemlərindən biri kimi yeni pedaqoji təfəkkürün formalaşdırılmasını vacib hesab edir və onu ictimai-siyasi hadisə adlandırırdı. Eyni zamanda belə qənaətə gəlmişdir ki, "Bu gün yeni pedaqoji təfəkkür inkişaf edərək zamanın təhsil konsepsiyasına çevrilmişdir". O, bu fikrə gələrkən inkişaf konsepsiyası ilə məşğul olan dünyanın Con Nesbitt, Patrisiya Eburdin, Leonid Vladimiroviç Zankov, Qreys Krayq kimi məşhur alimlərinin ideyalarına əsaslanmış, Azərbaycan pedaqoji mühitində isə Sizə istinad etmişdir: "Yeni pedaqoji təfəkkür innovasiyadır, onun formalaşması prosesi isə innovasiya prosesidir... İnnovasiya prosesi-yeni qaydaların yaradılması, işlənib hazırlanması, mənimsənilməsi, tətbiqi və yayılması sahəsində kompleks fəaliyyət deməkdir".

Siz doğru olaraq "uğursuz şagird yoxdur, səriştəsiz müəllim vardır" fikrini müasir təhsili xarakterizə edən müddəa adlandırmısınız. Və hər bir şagirdin potensialına uyğun dərs yükünü müəyyənləşdirməyi və onun inkişafını təmin etməyi müəllimin vəzifələrindən biri hesab edirsiniz. Təbii ki, belə müəllimlər daha çox bacarıqlara malik olmalı, hər zaman şagirdlərinin fövqündə dayanmağı bacarmalıdırlar. Şagirdlərin maraq və diqqət obyektinə çevrilməlidirlər.

Hörmətli Asif müəllim, Sizin bir təhsil mütəxəssisi kimi istər Azərbaycan, istərsə də daha geniş mənada dünya təhsili və onun inkişaf tendensiyaları haqqında bilgiləriniz çoxdur. Ən yaxşı cəhət orasındadır ki, Siz onlara yaradıcı yanaşmaq, Azərbaycan təhsili müstəvisində hazırlanan innovasiyalara məhz milli şəraitə, səviyyəyə uyğun dəyər verməyi üstün hesab edirsiniz.

Bu gün təhsilin yeni məzmunu, fənlərin inteqrasiyası, təhsil standartlarının xarakteri, yeni kurikulumların həyati bacarıqlara söykənməsi, dərsliklərin intellektuallığı, yeni nəsil müəllimlərin hazırlanmasındakı prioritetlər, sosial sifarişlərin yerinə yetirilməsi baxımından məktəbin vəzifələri, təhsildə qiymətləndirmə kimi aktual və həlli vacib hesab edilən çoxlu məsələlər vardır ki, siz onlar haqqında zamanımızla səsləşən xeyli araşdırmalar aparmış, mülahizələr söyləmisiniz. Heç şübhəsiz, mən bu məktubumda onların hamısını sadalamaq fikrində deyiləm. Lakin onu demək istəyirəm ki, Siz həmişə varlığınızla təhsilə bağlı adam kimi onun təəssübkeşi olmusunuz. 70 illik ömrünüzün indiki çağında da həmin missiyanı uğurla davam etdirirsiniz. Sizə bu yolda cansağlığı və daha böyük yaradıcılıq uğurları arzulayıram!

70 yaşınız mübarək!



# Təhsil - indiki nəslin gələcəyə olan borcu

## İnsan tarix boyu oxumağa və öyrənməyə can atıb

⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

### İlk təhsil ocaqları

Cəmiyyətin ayrılmaz prosesi olan təhsil öz kökünü "bildung" sözündən götürür. Almancadan tərcümə edildikdə bu söz "tərz" mənasını verir. Təhsil tək insanların deyil, bütövlükdə dövlətin inkişafına yönəlmiş prosesdir. Bunun nəticəsində insan şəxsiyyət kimi özünü kəşf edir, müəyyən dəyərlər, biliklər və normalara yiyələnir. Qayıdaq yenə təhsil sisteminin təkamül prosesinə. Yazı və riyazi simvolların kəşfi və kiçik dövlətlərin peyda olması ilə paralel savadlı insanlara ehtiyac da yaranmağa başladı. Bu amil təhsilin spesifikasında çevrilişə bir təkan oldu, çünki xüsusi hazırlıq və təşkilatlanma tələb edirdi. İki faktora ehtiyac duyuldu:

- Savadlı, bilik və bacarıqlarını gənc nəslə çatdıra bilən müəllim;
- Təhsil prosesini həyata keçirmək üçün məkan - məktəb.

Məhz bu iki amil üç min il əvvəl (bəzi ehtimallara görə 5 min il əvvəl) qədim Misir və Babildə Şərq təhsil sisteminə əsaslanan təhsil ocaqlarının yaranmasına mühüm təsir göstərmiş oldu. Burada uşaqlara yazı, riyaziyyat, din, mifologiya, gimnastika və musiqidən savad verilirdi. Babildə belə tədris ocaqlarına "Lövhə evlər" deyirdilər, Misirdə isə "Yazar evləri". Misirdə çox zəngin kitabxanalar olub. Kitabxanalar burada mədəniyyət mərkəzləri sayılırdı, çünki o vaxta görə zəngin məlumat bazası funksiyasını daşıyırdılar. Məktəblərdə tədris 5-7 yaşında başlayır, 25 yaşadək davam edirdi. Dərsə gəlməməyə, yaxşı oxumamağa görə uşaqlara fiziki təzyiqlər edilir, düşünülürdü ki, bu, onların nizam-intizamlı böyümələrinə kömək edəcək.

Antik dövrdə nisbətən iri məktəblər yaranmağa başladı. Yunan dilində "Schole" sözü "istirahət etmək və vaxt keçirmək üçün yer" anlamını verirdi. Qədim Yunan təhsil sistemində üç növ tərbiyə üsulu var idi: Sparta, Afina və Roma.

Spartada bütün məktəblər dövlətə məxsus idi və daha çox hərbi xarakter daşıyırdı. Sparta məktəblərinin əsas vəzifəsi oğlanları və qızları fiziki cəhətdən güclü, dözümlü vətən müdafiəçisi olaraq yetişdirmək idi. Uşaqlar məktəblərdə doğulandan 18 yaşınadək təhsil alırdılar. Əsas vəzifə çətin vəziyyətlərdən çıxış yolunu tapmağı öyrənmək idi.

Afinada məktəb təhsilini yalnız oğlan uşaqları ala bilərdilər. Qızlar ev şəraitində tərbiyə edilirdilər. Bütün Afina məktəbləri indiki dillə desək, özəl idilər. Məktəblərdə yazmağı və oxumağı, hesabı, rəqs etməyi və mahnı ifasını öyrədirdilər. Düşünürdülər ki, məktəbin əsas məqsədi hərtərəfli inkişaf etmiş məlumatlı şəxs yetişdirməkdir.

Romada isə başlıca dəyər şəxsiyyət deyil, dövlət idi. Sosial-sinfi təbəqələşmə nəticəsində məktəb iki növə ayrılmışdı:

- Pullu məktəblər. Burada ali və orta təbəqənin uşaqları təhsil alırdı. Yazı, oxu, hesab adi dərslər idi. Yuxarı təbəqə təmsilçiləri üçün dərin qrammatik biliklər, fəlsəfə və ritorika, yunan və latın dilləri keçilirdi;
- Aşağı təbəqələrdən olan uşaqları isə sənət öyrənmək üçün sənətkarların, ticarətin sirlərinə yiyələnmək məqsədilə tacirlərin yanına göndərirdilər.

Bütün bunlarla yanaşı, Yunanıstanda ritorik məktəblər də mövcud idi ki, burada astronomiya, riyaziyyat, fəlsəfədən dərslər keçirilir, disput və mübahisələrin aparılması yolları öyrədilirdi.

### Məktəb bizə nə verir?

Roma məktəb sistemi müasir sistemlərə ən yaxını hesab edilir. Qədim Misirdə məktəblərin kimlər tərəfindən yaradıldığı tarix üçün qaranlıqdır. Ehtimallar 5 min il əvvəlin üzərindədir. Qədim İkiçayarasında 3 min il əvvəl məktəblərin olduğu deyilir. Bu baxımdan, məktəbin baniləri kimi Aristotel və Platonun hesab edilməsində qeyri-adilik axtarmaq lazım deyil. Ümumi təhsil sisteminin əsasının Şərqi Roma İmperiyası olan Bizansda 425-ci ildə qoyulduğu deyilir. 1453-cü ildə türklər Konstantinopolu fəth etdikdən sonra bu sistem süquta uğrayıb.

Son iki-üç əsrdə təhsil prosesi sürətli inkişaf yolu keçib. Ancaq hətta antik dövrün təhsilinə nəzər yetirdikdə belə, təhsilin tarix boyu ən çox ehtiyac duyulan sahə olduğunu görürük. Beləliklə, məktəb bizə nə verir?

1. Sosial və təşkilati bacarıqlarımız inkişaf edir;
2. Dünyagörüşümüz artır, çünki daima yeni nəsə öyrənirik;
3. Məktəb yaşadığımız dünyanı daha yaxşı qavramaq və anlamağa kömək edir;
4. Gələcək rifahımızın əldə edilməsi üçün mühüm bir mərhələdir;
5. Məktəb bizi tərbiyə edir;
6. Müxtəlif fikir və qənaətləri müşahidə edib anlaya bilirik;
7. Təhsil karyera yüksəlişinin təminatçısıdır;
8. Təhsil hesabına müstəqilik və potensialımızdan istifadə edə bilirik;
9. Təhsilli insanlar bütün cəmiyyət üçün töhfələr verir;
10. Statistikaya əsasən, savadlı insanlar daha uzunömürlü olurlar, idmana, sağlam həyat tərzi və sağlam qidaya üstünlük verirlər;
11. Təhsil iqtisadi və sosial asılılığın azalmasına təsir göstərir;
12. Təhsil elm və texnologiyada tərəqqi deməkdir;
13. Təhsil nəyin düz, nəyin yanlış olduğunu anlamağımıza kömək edir və nəticədə dünya daha təhlükəsiz olur.

Tomas Çandler Halibarton deyirdi ki, "təhsil insana digər insanların nə qədər az bildiklərini göstərir". Övladlarımıza izah etməliyik ki, Aristotel demişkən, "təhsilin kökləri acı olsa da, meyvələri şirin olur". Özümüz isə bilməliyik ki, təhsil indiki nəslin gələcək nəslə olan borcudur.

# Milli varlığımızın əsas rəmzi

## Ana dilimizin qorunması hər birimizin vətəndaşlıq borcudur



**Sevinc ƏLİYEVA,**
*filologiya üzrə elmlər doktoru, AMEA Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri*

Dil millətin simasını səciyyələndirən mühüm amillərdən biri, onun milli sərvətidir. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir.

Bu yüksəliş millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilin zənginliyinin sübutudur. Dil istənilən xalq üçün maddi və qeyri-maddi irsin qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsi istiqamətində ən güclü vasitələrdən biridir. Müxtəlif ölkələrdə ana dilinin təbliği üçün həyata keçirilən bütün tədbirlər təkcə linqvistik müxtəlifliyi və çoxdilli tədrisi həvəsləndirmək baxımından deyil, eyni zamanda, qarşılıqlı anlaşmaya, tolerantlığa və dialoqa əsaslanan mühitin formalaşması üçün də vacibdir.

Dil fərdə, cəmiyyətə, sosial inteqrasiyaya, təhsil və inkişafa təsir gücünə görə bəşəriyyət üçün həyati əhəmiyyət kəsb edən dəyərlərdəndir. Qloballaşma prosesinin təsiri ilə mürəkkəb dövr yaşayan “ana dili” və ya “doğma dil” anlayışı bu gün qorunmağa və möhkəmlənməyə böyük ehtiyac duyur.

Respublikada dil siyasətinin formalaşdırılması, Azərbaycan dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli birliyin və həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Azərbaycan xalqının milli varlığının əsas rəmzi olan ana dilimizin saflaşdırılması və zənginləşdirilməsi istiqamətində çox mühüm addımlar atmış, Azərbaycan dilinin inkişafı və qorunması məqsədilə əhəmiyyətli sənədlər imzalamışdır.

1992-ci ildə latın qrafikalı Azərbaycan əlifbasının tətbiqi barədə Qanun qəbul olunub. 2001-ci ildə isə latın qrafikalı Azərbaycan əlifbasına keçid uğurla başa çatdırılıb. Latın qrafikalı əlifbanın tətbiqinin Azərbaycan Respublikasının siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq Azərbaycan Prezidenti Heydər Əliyev 2001-ci il avqustun 9-da fərman imzalayıb və bu rəsmi sənədlə avqustun 1-i Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü elan edilib.

“Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir”, - deyən ümummilli liderin 2001-ci il iyulun 18-də imzaladığı “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında”, həmin il avqustun 9-da imzaladığı “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” fərmanlar ana dilimizin qorunması və inkişafı baxımından göstərdiyi misilsiz xidmətlərdəndir.

Azərbaycan Prezidenti İlham Əliyevin “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında 9 aprel 2013-cü il tarixli Sərəncamına əsasən, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinin, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasının təmin edilməsi milli ədəbi dilin daha da zənginləşməsi ilə yanaşı, dilçiliyin əsaslı inkişafı baxımından da böyük əhəmiyyətli olub. Bu istiqamətdə görülən işlər ana dilimizin inkişafına ölkə başçısı tərəfindən göstərilən böyük qayğı və diqqətin təzahürüdür. Dövlət Proqramının məqsədi 2013-2020-ci illər ərzində Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılması, dilimizin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi, ölkədə dilçilik araşdırmalarının yaxşılaşdırılmasıdır. Sənəd, eyni zamanda, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini nəzərdə tutur.

Ana dilimizin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tədbirlərində eşidilməsi hamımız üçün qürurverici haldır. Bu səbəbdən, ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, “İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir”. Dilimizin saflığının qorunması, eyni zamanda, özünəməxsus cəhətlərinə xələl yetirilmədən zənginləşdirilməsi hazırda aktual məsələlərdəndir.

Qeyd olunan Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi sahəsində işlər bu gün də davam etdirilir. AMEA Nəsimi adına Dilçilik İnstitutunun monitorinq şöbəsi Dövlət Proqramının icrası ilə bağlı davamlı şəkildə monitorinqlər apararaq ölkədə dil situasiyasının müəyyənləşdirilməsi və dilin inkişafı üçün şəraitin yaradılması sahəsində işlər həyata keçirir. Audiovizual reklamların və küçə reklamlarının dilinin monitorinqi, qəzetlərdə və saytlarda Azərbaycan dilinin normaya uyğun işlədilməsi, küçə adları, radio və TV dilinin davamlı monitorinqi, ədəbi dil normalarının pozulması hallarının qarşısının alınması, elan və lövhələrin monitorinqi ilə bağlı tədbirlər buna nümunə göstərilə bilər. Bundan əlavə, bir sıra dövlət qurumları ilə qarşılıqlı əməkdaşlıq uğurlu iş kimi dəyərləndirilə bilər. Bakı Şəhər İcra Hakimiyyəti Reklam və İnformasiya İdarəsi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Kadastrı və Texniki İnventarlaşdırma Mərkəzi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə əməkdaşlıq bu qəbildəndir.

Dövlət Proqramına uyğun olaraq (maddə 6.5.1) “Qaynar xətt” (nömrə: 538-06-37) yaradılmış və uğurlu şəkildə fəaliyyətini davam etdirməkdədir.

Regionlarda dil situasiyasına nəzarət məqsədilə bir sıra rayonların ərazisində küçə adlarında, reklam və elanlarda, idarəçilik və kargüzarlıqda ədəbi dilin düzgün tətbiqinin vəziyyətini izləmək məqsədilə mütəmadi olaraq monitorinqlər təşkil olunub.

Bu istiqamətdə uğurlu fəaliyyət kimi Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu ilə əməkdaşlığı da qeyd etmək yerinə düşər. Bilik Fondunun təşəbbüsü və birbaşa dəstəyi ilə “Ekran və efirdə ədəbi dil normaları” adlı layihə çərçivəsində “Xəzər TV”, “Lider TV”, “Kəpəz TV” (Gəncə) və “ARB-24 Xəbər” (Tovuz) kanallarında baş tutmuş tədbirlər dilin saflığının qorunmasına xidmət edən addım kimi dəyərləndirilməlidir. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun və Milli Televiziya və Radio Şurasının rəyi əsasında dərc olunan tövsiyə xarakterli məqalələr toplusu gələcəkdə bu sahənin mütəxəssisləri üçün faydalı vəsait kimi istifadə oluna bilər. “Ekran və efirdə ədəbi dil normaları” layihəsi çərçivəsində regionlarda dövlət dilinin təbliği, məktəblərdə gənc nəslin nümayəndələri ilə görüşlər və müzakirələr maarifləndirmə və təşviqat istiqamətli tədbir kimi əhəmiyyətli olmuşdur. Təsadüfi deyil ki, Bilik Fondunun yaxın zamanlarda dövlət dilinin qorunması və inkişaf etdirilməsi ilə bağlı ölkə regionlarında Azərbaycan dilini tədris edən təhsil işçiləri, yerli KİV nümayəndələri, məktəbli və tələbələr cəlb olunmaqla yeni bir maarifləndirici layihəyə - “Dilimiz sərvətimizdir” layihəsinə imza atması nəzərdə tutulub.

Artıq dörd ilə yaxındır ki, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu “Azərbaycan dilini öyrənirik” layihəsi çərçivəsində paytaxtın Rus Pravoslav kilsələrində rusdilli əhali üçün ödənişsiz “Azərbaycan dili” təlim kursları təşkil edir. Dinləyicilər dövlət dilində ünsiyyət qurmaq bacarıq və vərdişlərinə yiyələnməklə, ədəbi dil normalarını öyrənməklə yanaşı, tariximiz və mədəniyyətimizlə yaxından tanış olmaq məqsədilə muzey və sərgilərə, film nümayişləri və teatr tamaşalarına dəvət olunur, elm və mədəniyyət xadimləri ilə görüşürlər.

Bu cür yanaşma rusdilli vətəndaşlarımıza dövlət dili vasitəsilə multikultural həyat tərzi ilə tanınan xalqımızın qədim tarixi və zəngin mədəniyyətinə dair faydalı və gərəkli bilgilər əldə etmək imkanı verir.

Dəyərli və zəngin sərvətlərimizdən biri olan dilimizin qorunması və təbliğ edilməsi dil və din mənsubiyyətimizdən asılı olmayaraq hər birimizin mühüm vətəndaşlıq borcudur.

# Şərəfli ölüm

*hekayə*



**Arif NURİYEV,**
*Culfa rayon Saltaq kənd tam orta məktəbinin müəllimi, Naxçıvan MR-in Əməkdar müəllimi*

Qazi Yıldırım müraciətinə belə başladı: - Ey ərlər, ərənlər, eşidin məni!

Tanrı yer üzünü öz yaratdıqları arasında bölərkən ən gözəl guşələri türklərə əmanət etmişdir. Çünki torpağın, müqəddəs yurd-yuvanın qədrini türklər qədər bilən yoxdur. Torpağını qoru, qadınını güldür, övladını sevindir. Yəni torpaq babanındır, qadın sənindir, övlad sabahındır.

Ömrünün səksənini yola salan Qazi Yıldırım bu sözləri vətənin çağırışına toplaşanlara ağır-ağır söyləyir, arabir başını qaldırıb dəliqanlı gəncləri, yeniyetmələri gözucu süzürdü:

- Övladlarım, vətən bizə Tanrı payıdır. Tanrı payına xəyanət olmaz. Biz bu Tanrı payını elə qorumalıyıq ki, düşmən gözü belə ona baxa bilməsin. Kişinin doğma ocağı, ev-eşiyi öz övladlarına, övladlarının övladlarına müqəddəs əmanət olaraq gedib çatdığı kimi, vətən də bu xalqın gələcək nəsillərinə babaların müqəddəs əmanəti kimi, bütöv gedib çatmalıdır.

Qazinin danışığında qətiyyət, inam qarışıq bir də döyüş ruhu vardı. O danışdıqca dəliqanlılar kimi coşurdu: sanki yaşını unutmuşdu.

Birdən Qazinin gözləri 13-14 yaşlarında nəvəsi Bayruka sataşdı. Bayruk babasının sözlərini bir-bir tutacaqmış kimi, gözlərini geniş açaraq qulaq kəsilmişdi.

O, buna bənzər sözləri atası Şimşəkdən də eşitmişdi. İndi eşitdiklərini atasından eşitdikləri ilə eyniləşdirir və yəqin edir ki, atası da hamı kimi bu cür tərbiyə almış, vətən uğrunda çox çarpışmış və döyüşlərin birində vətən uğrunda ölmüşdü. Bayrukun qəlbindən bu fikirlər keçərkən babası Yıldırım Qazi də özünün ilk yeniyetməlik çağlarını xatırladı...

Qovğalı günlər idi. Yurd üzərinə azğın düşmən təhlükəsi vardı. Odur ki, əli silah tutanların hamısı düşmən üzərinə yeriməyə hazırlaşırdı. Yıldırım da böyüklərin etirazına baxmayaraq, gəlib qoşunun tərkibinə qatılmış, döyüşə hazır vəziyyətdə durmuşdu. Qoşunun başçısı Qara xan qoşunun önündən keçərək döyüşə hazırlığı yoxlayır, bu döyüşün asan olmayacağını da açıqca söyləyirdi. Yıldırıma çatanda gözlərinə inanmadı: - Oğlum, sən burada nə edirsən, sən hələ uşaqsan, çıx sıradan! Bura sənin yerin deyil!

Yıldırım bir az böyük görünmək üçün dabanlarını qaldıraraq böyüklərə məxsus olan bir səslə:

- Mən də döyüşə getmək istəyirəm, - demişdi.

Qoşun başçısının uşağın bu cəsarətindən xoşu gəlmişsə də, israrlı səslə əmr etmişdi: - Çıx, - dedim, - sıradan!

Yıldırım bir addım irəli çıxıb, hamının eşidəcəyi bir səslə:

- Sayın babam, sizdən diləyim budur, mənim torpaq uğrunda şəhid olmaq xoşbəxtliyimi əlimdən almayın.

Uşaq artıq bütün qoşunun diqqətini cəlb etmişdi. Qoşun başçısı əl boyda bir uşağın qarşısında aciz qalmışdı. Başa düşmüşdü ki, heç kəsin vətən sevgisini, həyat istəyini əlindən almaq olmaz.

- Olsun, aslanım, ancaq yardımçı olacaqsan.

Elə o gündən Yıldırım döyüşlərdə olmuş, döyüşlərdə böyümüş, saysız qanlı savaşlardan çıxaraq qaziliyə çatmışdı.

İndi o çağlar çox-çox arxada, çox-çox illərin dərinliyində qalmışdı. Bu illərdə Yıldırım neçə-neçə qələbələrin sevincini, şirinliyini dadmışdı.

Bütün bunlar hazırda ixtiyar qoca üçün əlçatmaz, ünyetməz idi. İndilikdə isə qocanın ürəyi başqa bir istəkdə, arzuda idi. Şərəfli keçən bir ömrü şərəflə də başa vurmaq. Yəni bu ömrü ucalardan endirib alçaqlarda sona çatdırmaq olmaz. Yaxşı bilirdi ki, yataqda ölən kişinin el-oba yanında o qədər də qədir-qiyməti olmaz, onu ağır-əziz etməzlər. Kişi gərək torpaq uğrunda savaşda olsun, həm də öldürüb ölsün. Babasından onu da eşitmişdi ki, igid döyüşdə öldürmədən ölürsə, bu da ona ayıb sayılır. Yəni öz qanını almadan, düşməni azaltmadan ölürsənsə, bu, başıucalıq, ərlik deyil.

Qazi sözlərini tamamlayıb:

- Haydı, oğullarım, vətən bizi səsləyir. Tanrı bizə yar olsun! - dedi.

Qara xan qocanın sözünü tamamladığını görüb, uca səslə:

- Bölük başçıları hamı öz bölüyü ilə hazır olsun. Dan ulduzu görünəndə düşmənin başı üzərini almalıyıq.

Birdən Qazi Yıldırım Qara xana müraciətlə:

- Xanım, mən də döyüş libasımı geyib döyüşə gedəcəyəm. İxtiyar qocanın bu sözləri eşidənlər üçün çox təəccüblü oldu. Odur ki, Qara xanla bərabər hamı qocaya etiraz etdi:

- Yox, sən bu yaşda döyüşə gedə bilməzsən.

- Xahiş edirəm, izn verin, xanım!

- Ay qoca, sən nə danışırsan? Biz buna razı ola bilmərik.

Bu dəfə elə bil ixtiyarın ürəyi dil açdı:

- Qara xan, səndən bir ricam var, mənim vətən yolunda öz canımı şəhid etmək şərəfimi əlimdən alma!

Qoşun heyrət içində idi. Qara xan üzərində dağdan ağır bir cavabdehlik olduğunu başa düşdü. El-oba buna nə deyərdi? Qara xanı qınamazdılarmı? Odur ki, qətiyyətli bir səslə, - yox, Yıldırım, - dedim ki, getməyəcəksən! Biz səni düşmən üstünə aparsaq, Tanrı da bizi bağışlamaz. Bir də ki, sən elə yurdyuva üçün vuruşduğunu vuruşmusan, tökülən qanını tökmüsən, aldığın yaranı almısan. Qurtardı!

Yıldırım Qazi daha sözü çevirmədi. Çünki o elə bu andaca öz sonrakı qərarını vermişdi.

Qoca evə gəldi. Çoxdan geyinmədiyi döyüş paltarlarını, çəkməsini tapıb gətirdi. Geyindi, dəbilqəsini başına qoydu, çəkmələrini geydi. Döyüş paltarı necə də yaraşırdı ona. Ömrü bu paltarda keçməyibmi?

Qəribədir, kişi özünü çox yüngül qısqıvraq hiss etdi, elə bil cavanlaşdı. Yayını, sadaxını çiyninə asdı, qılıncını qurşayıb, qalxanı qoluna keçirdi, var-gəl etdi. Heç nə yaddan çıxmamışdı. Həyətə endi. İpəkyallı qonur atın yanına gəldi. Yəhər-yüyəni gətirib atı yəhərləməyə başladı. Elə bil at, sahibinin niyyətini duymuşdu. Öz hərəkətləri ilə razılığını bildirməyə çalışırdı. At da hazır oldu. Ata minmək onun üçün çətin idi. Odur ki, atı bir daşın yanına çəkdi. Daşın üstünə çıxıb, ayağını üzəngiyə qoydu. Özünü atın üstünə aşırdı. Bir az o tərəf bu tərəfi süzərək ev-eşiklə, həyət-baca ilə halal-hümmət elədikdən sonra yola çıxıb ata yüngül bir qamçı vurdu. Günəş qüruba enirdi. Atlı qaranlıq düşənəcən daha çox yol qət etmək istəyirdi. Amma ehtiyatı da əldən vermirdi. Əgər at çox sürətlə gedərsə, ona çox çətin olar, bəlkə də...

Yavaş-yavaş gecə öz qaranlıq pərdəsini saldıqca atı tələsdirmir, asta-asta getməyə çalışırdı. Göylər tər-təmiz idi, ulduzlar sayrışırdı. Ancaq uzaqlarda qara niyyətli düşmən kimi sıxlaşan qara buludlar görünürdü. Bir azdan ay çıxacaq, öz nurunu Yer üzünə salacaqdı. Yıldırım Qazi çox kəsə yolla gedir, düşmənlə üzbəüz gəlməsinə tələsirdi. Budur, üfüq ağarır, ay nazlı bir gəlin kimi boylanırdı.

Artıq ay bir cida boyu qalxmış, hər tərəf ay işığına bələnmişdi. Bu yerlərin hər qarışına ovuc içi kimi bələd olan qoca üçün at sürmək o qədər də çətin deyildi. Arabir qurd ulaşması, çaqqal səsi gəlirdi. Ancaq Yıldırım bunların fərqində deyildi.

Döyüş “Quzğun düzü”ndə olacaqdı. Ora isə hələ bir xeyli vardı. Gecənin bir aləmi keçmiş, qaranlığın üzü işığa doğru idi. Qonur at bütün gücünü toplayıb ehtiyatla irəliyə doğru can atmaqda idi.

Nəhayət, uzun yolun sonu. Quzğun düzünə az qalır. İrəli, Qonurum, yoldaşım, sirdaşım, qardaşım. Ulularımız nahaq deməyib ki, türk at belində doğulur, at belində vuruşur, at belində ölür. İndi eşit, bil, arxam, köməyim, döyüş yoldaşım, mən at belində ölməyə gedirəm.

Quzğun düzü. Üç tərəfi dağlar və təpələrlə əhatə olunmuş geniş düzənlik. Kim bilir, burada nə qədər qanlı vuruşmalar olub, nə qədər başlar atların ayaqları altına atılıb? Bir tərəfi isə sıx kolluq. Qoca türk yorulsa da, atı əldən salsa da dayanmadan irəlilədi. Yaxından düşmən atlarının fınxırtısı eşidildi. At da bunu duyduğundan irəli can atdı. Yıldırım atın cilovunu çəkib saxladı. Başını göylərə qaldırdı. Zənn etdi ki, dan ulduzunun doğmasına az qalır. Bu da son mənzil. Qoca yayını çiynindən alıb, döyüşə hazırlaşdı. Elə bu vaxt ona tərəf hərəkət olduğunu hiss etdi. “Hə, Yıldırım, taleyində sonuncu sınaq. Sən öldürmədən ölməməlisən. Əgər öldürmədən ölsən, ölüm sənə haram olsun!”.

Qoşun hərəkətə gəlmişdi. Bu, alatoranlıq içərisində seçilirdi. Qoca kolluqda olduğundan düşmən onu görmürdü. Aralarında bir ox mənzili qalanda oxu yaya qoyub lap qabaqda gələn düşmən atlısını nişan aldı. Ox qıjıldayıb düşmənin sinəsinə sancıldı. Onun bağırtısı ətrafa yayıldı və dağdaşda əks-səda verdi. Süvari geri qanrılıb atın ayaqları altına yıxıldı. Düşmən içərisinə vəlvələ düşdü. Onlar türklərin elə buradaca olduğunu yəqin edib ətrafa səpələndilər. Qoca tez ikinci oxu yaya qoyub onun üstünə gələnlərdən birini də nişan aldı. O da qıvrılıb atın boynunu qucaqladı. Tamam taqətdən düşmüş qoca, əlini qılıncına atdı... Elə bu vaxt düşmən qılıncı onun çiyninə endi. Yıldırım kolluğun içinə düşdü. Düşmən qoşunu irəli keçdi. Az sonra Qara xanın qoşunu ilə qarşılaşdı. Qara xanın əvvəlcədən dediyi kimi, ağır vuruşma oldu. Türklər aslan kimi vuruşur, düşməni təqib edirdi. Azğın düşmənin çox hissəsi qırılıb atların dırnaqları altında tapdandı, qalanları isə geri çəkilməyə məcbur oldu. İndi düşmən qaçır, türklər isə qovurdu. Birdən Qara xanın gözünə kolluqda düşüb qalmış bir türk əsgəri sataşdı. Burada döyüş olmamışdı. Kim ola bu? Tez atdan sıçrayıb əsgərin başını qolları arasına aldı. Gözlərinə inanmadı. Heyrətdən donub qaldı. Bu, Qazi Yıldırım idi. Özü də ölməmişdi. Bunu görən əsgərlər də onun başı üzərinə toplaşdı. Nurani çöhrəsi saqqalı kimi bəmbəyaz olmuşdu. Bu yuxu idimi, yoxsa nə idi? Axı o, buralara necə gəlib çıxmışdı? Hamı heyrət dənizində qalmışdı. Birdən Qazi gözlərini açdı. Qara xanı görüncə üzündə təbəssüm nişanəsi göründü. Qara xan səbirsiz halda təəccüb və narahatlıq dolu bir səslə soruşdu:

- Qazi, axı mən sənə izin vermədim, nə üçün sən izinsiz gəlmisən?

Qazi son gücünü toplayıb cavabında:

- Oğul, şərəfli ölüm üçün izin istəmirlər, - dedi.

İndi onun ayazımış üzündə, gözlərinin dərinliyində bir rahatlıq, taleyindən razılıq hissi duyulurdu. Çünki o, qartal ömrünü qartal kimi də zirvədə başa vururdu.

İxtiyarın dodaqları yenə tərpəndi, çətin anlaşılacaq, qırıq-qırıq söylədiyi son sözləri bu oldu:

- Məni vətənin sərhə...dində dəfn edin, qoyun məza...rım da vətənə sipər ols...un!

Vətənin göylərində aydın və parlaq bir bahar günəşi doğmuş, qara buludlar əriyib görünməz olmuşdu.

## "Qualcomm" smartfonlar üçün yüksək sürətli 5G-anten təqdim edib



Yusif ƏLİYEV

"Qualcomm" şirkəti mobil qurğuları 5G-şəbəkələr səviyyəsində ötürmə qabiliyyəti ilə təmin edəcək millimetr diapazon (mmWave) dalğaları texnologiyası əsasında ilk anten modulunu təqdim edib. "QTM052" əlin siqnalı bloklaması üçün smartfonun hər tərəfində yerləşdirilən dörd anten ilə təchiz edilib. O, Snapdragon X50 5G-modemi ilə əlaqəli işləyir.

**www.hitech.vesti.ru** saytının məlumatına görə, "MmWave" modulunun nəzəri ötürmə qabiliyyəti 5 Gbit/s təşkil edir. Şəhər şəraitində siqnalların ötürülməsinə binaların mane olması səbəbindən ehtimal olunur ki, sürət 1,4 Gbit/s-ə yaxın olacaq. Müqayisə üçün qeyd edək ki, 4G-şəbəkələrdə sürət 700 Mbit/s-ni ötmür.

"Qualcomm"un 2017-ci ilin əvvəlində təqdim etdiyi ilk 5G-antennası o qədər böyük idi ki, onu araba ilə daşımaq lazım gəlirdi. Yeni modulların eni isə, "iPhone X"ın qalınlığı ilə müqayisə edilə bilər: təxminən 7,7 millimetr.

## Smartfon kameraları üçün innovativ sensor



Smartfonlar üçün fotomodulların ən böyük istehsalçılarından biri olan "Sony" şirkəti "IMX586" adlı yeni "CMOS" sensorunu təqdim edib. Şirkətin mütəxəssisləri iddia edirlər ki, rekord təsvir ölçüsünə malik yeni sensor güzgülü kameraların modullarına rəqib olacaq.

**www.4pda.ru** saytının məlumatında bildirilir ki, "IMX586" sensoru dünyada ən kiçik piksellərə (0,8 nanometr) malikdir. Bu, standart modulda 8000x6000 təsvir ölçüsündə (48 meqapiksel) şəkil çəkməyə imkan verəcək. Adətən pikselin ölçüsünün azaldılması çəkilişin keyfiyyətinə mənfi təsir edir, çünki ona daha az işıq düşür. Lakin "Sony" şirkətinin mütəxəssisləri "Quad Bayer" adlı piksellərin yerləşməsi sxemi sayəsində bu məhdudiyyəti keçməyə müvəffəq olublar.

Bundan başqa, şirkət kameranın modulunda ekspozisiyanın idarə edilməsi və siqnalın işlənməsi texnologiyaları sayəsində istifadəçilərə şəkillərin yüksək keyfiyyətli olacağına dair söz verib. Bu, sensorun dinamik diapazonunu 4 dəfə yüksəltməyə imkan verir.

Yeni modul cari ilin sentyabr ayında satışa çıxarılacaq. Lakin "Sony IMX586" əsaslı ilk qurğuların bazara çıxarılma tarixi hələ ki, məlum deyil.

## Kanada alimləri gözəgörünməz plaş ixtira ediblər



Kanada alimləri insanı gözəgörünməz edən plaş ixtira ediblər. Monreal Elmi Araşdırmalar Milli İnstitutunun ekspertləri aydınlaşdırıblar ki, gözəgörünməz plaşın sirri işıqla manipulyasiyalardan ibarətdir.

**www.belta.by** saytının məlumatına əsasən, bu plaş enerjinin xüsusi ötürülməsinin köməyi ilə gözdən şüa və predmetləri gizlədir. Bunun səbəbi insanın gözlərinin elektromaqnit spektrinin bütün tezliklərini görə bilməməsidir.

## ABŞ-da yolları işıqforlardan azad edəcək sistem sınaqdan keçirilir




ABŞ alimləri işıqforların istismarından imtina etməyin mümkün olacağı sistem hazırlayıblar. Bu sistem avtomobilin digər nəqliyyat vasitələri ilə əlaqəni nizamlamasını təmin edəcək.

**www.belta.by** saytının məlumatında bildirilir ki, siqnallarla mübadilə üsulu yol hərəkətini nizama salacaq və yolda vaxta qənaət etməyə imkan verəcək.

Qeyd edək ki, layihənin kütləvi işə salınma tarixi müəyyən edilməyib. Bunun səbəbi hələ ki, piyadalar üçün bu kimi siqnalları qəbul etmək imkanının yaradılmamasıdır. Lakin bu funksiya artıq pilotsuz avtomobillərdə mövcuddur.

## "Sehrli" çubuq uşaqlara proqramlaşdırmanın əsaslarını öyrədəcək



"Kano" şirkətinin mütəxəssisləri uşaqlara proqramlaşdırmanı əyləncəli formada öyrətmək məqsədilə Harri Potterin "sehrli" çubuğunu hazırlayıblar. Qurğu "Javascript" proqramlaşdırma dilinin əsaslarının öyrənilməsi üçün xüsusi sensorlara malikdir.

**www.dni24.com** saytının məlumatına görə, artıq uşaqlar proqramlaşdırmanı müxtəlif oyunlarla öyrənməyə kömək edəcək "sehrli" aləti əldə edə biləcəklər. İstifadə etməzdən əvvəl çubuğu yığmaq və iOS, Android, Mac və PC platformalarında işləyən qadcetə yüklənmiş proqrama qoşmaq lazımdır.

"Sehrli" çubuq məkanda onun yerini müəyyən edən sensorların sayəsində işləyir. Dəstə 70 öyrədici tapşırıq daxildir. Kodun yazılması çubuğu vuraraq ovsun etməyə bənzəyir. Qiyməti 100 ABŞ dolları təşkil edəcək qurğunu ABŞ, Kanada, Böyük Britaniya, Avstraliya və Yeni Zelandiyada əldə etmək mümkün olacaq.

# Müəllim və tələbələr beynəlxalq seminarda



Şakir CƏFƏROV

AMEA, BDU, ADPU və ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllim və tələbələrindən ibarət 23 nəfərlik heyət Türkiyənin Ankara şəhərində yerləşən İhsan Doğramacı adına Bilkent Universitetində üç həftəlik beynəlxalq seminarda iştirak edib. Azərbaycandan gedən qrupa ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin tədris işləri üzrə direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru Məhbubə Məmmədova rəhbərlik edib.

"Kurs müddətində Türkiyənin tanınmış universitetlərinin dilçi və ədəbiyyatşünas alimlərindən müxtəlif fənlərin tədrisi zamanı tariximiz və dilimizlə bağlı meydana çıxan problemlərin həlli istiqamətində dəyərli məlumatlar əldə etdik. İstirahət günləri qrupun üzvləri paytaxtın tarixi yerlərində oldu. Sonra Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün, Bilkent Universitetinin yaradıcısı, Türk dünyasının böyük oğlu professor, Dr.İhsan Doğramacının, Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin məzarları ziyarət olundu. Eyni zamanda "Şəhid Cümə Dağ Təbiət Tarixi" muzeyi ilə yaxından tanış olduq", - deyə M.Məmmədova bizimlə söhbətində bildirib.

Sonda seminar iştirakçılarına universitet rəhbərliyi tərəfindən beynəlxalq sertifikatlar təqdim olunub.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya №** 022327, **İndeks:** 0003, **Tiraj** 4553, **Sifariş** 2305

**Məsul növbətçi:** Ş.Cəfərov


## ELAN

26.12.1997-ci ildə 19 saylı şəhadətnamə ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmış "Bakı Qızlar Universiteti" Nizamnaməsində hüquqi formasını dəyişdirərək "Bakı Qızlar Universiteti" Məhdud Məsuliyyətli Cəmiyyətə çevrildiyini elan edir.

**REKTORLUQ**

# Etibarsız sayılır

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2001-ci ildə Eyvazov Əhliman Çingiz oğluna verilmiş A-083697 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** tərəfindən 2002-ci ildə Nəzirova Zeynəb Əhməd qızına verilmiş AB-II-078725 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** 1 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş İsayeva Xəyalə Vahid qızına verilmiş A-125383 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**5 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2005-ci ildə Məmmədov Rasim Babakişi oğluna verilmiş BB-005347 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Aşağı Nüvədi qəsəbə tam orta məktəbini 2011-ci ildə bitirmiş Rzayev Xalid Xalıq oğluna verilmiş B-750734 nömrəli dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**Respublika İnsəsənət Gimnaziyasını** 2004-cü ildə bitirmiş Abbasova Gülay Akif qızına verilmiş B-083625 nömrəli attestat itdiyi üçün eibarsız sayılır.

**Bakı şəhər** 275 nömrəli tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş İbramxəlilov Emin Elxan oğluna verilmiş A-608578 nömrəli şəhadətnamə və 2018-ci ildə verilmiş E-138712 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 154 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Quliyev Bağır Rafiq oğluna verilmiş A-302531 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 277 nömrəli idman təmayüllü tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Abbasov Samir Eldar oğluna verilmiş A758661 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**7 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2014-cü ildə Abbasov Vüsal Elçin oğluna verilmiş A-287586 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Böyük Söyüdlü kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Rüstəmova (Korobova) Olqa Valeryevnaya verilmiş B-154012 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Samux şəhər** 1 nömrəli məktəb-liseyi 2013-cü ildə bitirmiş Hüseynzadə Vaqif İxtiyar oğluna verilmiş A-275689 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 143 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Cəlilova Ülviyyə Mahir qızına verilmiş A-581559 nömrəli şəhadətnamə və 2009-cu ildə verilmiş B-589069 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 3 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Əliyev Süleyman Təmnixa oğluna verilmiş 628154 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2016-cı ildə Türkan Yaqub qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Buruc kənd tam orta məktəbini 2003-ci ildə bitirmiş Aslanova Aynur Sərdar qızına verilmiş A-648555 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Texnikumu** tərəfindən 1999-cu ildə Naftaliyeva Elona Muxail qızına verilmiş AB-II-035833 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Üçoğlan kənd tam orta məktəbini 2016-cı ildə bitirmiş Kamranlı Elgün Habil oğluna verilmiş AN-550323 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Türkmən kənd tərəfindən Məmmədov Tahir Qüdrət oğluna verilmiş 1.69 ha (JN) pay torpaq sahəsi haqqında akt itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 82 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Qəhrəmanzadə Şəbnəm Seymur qızına verilmiş E-002550 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Siyəzən şəhər** 3 nömrəli tam orta məktəbin XII (qiyabi) sinfini 1999-cu ildə bitirmiş Əkbərov Ceyhun Qulam oğluna verilmiş A-320044 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 3 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Dadaşova Nərmin Əlican qızına verilmiş A-587792 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Qöyunbinəsi kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Həsənov Vüqar Vidadi oğluna verilmiş 104104 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 162 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Asulov Aslanbəy Tofikoviçə verilmiş B-598363 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Sor-sor kənd tam orta məktəbini 2010-cu ildə bitirmiş Səlimov Alim Aqil oğluna verilmiş B-718347 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 20 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Məlikli Kubra Vaqif qızına verilmiş B-117271 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Türk Dünyası Atatürk Liseyini** 2011-ci ildə bitirmiş Məmmədli Vəsmə Vahid qızına verilmiş A-006392 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 8 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Səmədov Anar Talıfxan oğluna verilmiş B-620950 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2008-ci ildə Kərimova Nailə Elsevər qızına verilmiş B-137560 nömrəli fərqlənmə bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 228 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş İsmayılov İntiqam İnqlab oğluna verilmiş AN-659905 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 104 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Qasımova Çiçək Telman qızına verilmiş A-200241 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutunun** Sumqayıt filialı tərəfindən 2010-cu ildə Vəliyeva Xəyalə Məhəmməd qızına verilmiş B-170355 nömrəli bakalavr diplomuna əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 6 nömrəli məktəb-liseyi 2016-cı ildə bitirmiş İbrahimov Rəvan Rövşən oğluna verilmiş A-496885 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Xalq artisti, "Şöhrət" və "Şərəf" ordenli bəstəkar

**XƏYYAM MİRZƏZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Məktəb mühitinə psixoloji dəstək

## "Məktəblinin dostu" layihəsinin Psixoloji Mərkəzinin əsas çətinliyi valideynlərin əlçatan olmamasıdır

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**



Üstündə də psixoloqa lazım olanlar... Hər şey psixoloqun düzgün diaqnoz qoyması və aşkarladığı problemlə mübarizədə uğurlu nəticə əldə etməsinə hesablanıb.

Qeyd edək ki, Psixoloji Mərkəz "Məktəblinin dostu" layihəsinin ilk günündən fəaliyyətə başlayib. Məqsəd də budur ki, müxtəlif yaş qrupunda olan şagirdlərə, onların valideynlərinə, həmçinin müəllimlərə ehtiyac olduğu təqdirdə psixoloji dəstək verilsin. Bu dəstək həm məktəbdə, həm də Psixoloji Mərkəzdə göstərilə bilər.

Psixoloji xidmət daha çox diaqnostik, korreksiyaedici və konsultativ xarakter daşıyır, bəzən isə maarifləndirici olur.

Psixoloqlar məktəblinin dostu, müəllimlər və ya valideynlərin müraciəti əsasında məktəbə gedir. İstənilən müraciət valideynin razılığı alındıqdan sonra dəyərləndirilir. İlkin diaqnostika üçün məktəbə gedən psixoloqlar lazım gələrsə, şagirdi öz valideyni ilə birlikdə Mərkəzə dəvət edir. Psixoloq Aydan Əzimzadə deyir: "Məktəblərdə konsultasiya üçün şərait yaradılır. Düzdür, bu şərait ideal olmasa belə, ilkin diaqnoz üçün kifayət edir. Ancaq Psixoloji Mərkəzdə şərait daha yaxşı olduğundan razılaşdıqları təqdirdə valideynləri uşaqları ilə birlikdə buraya dəvət edirik. Elə uşaqlar da bura gəlməyə daha çox həvəs göstərirlər. Xüsusən, bir dəfə gəlib gördükdən sonra daha da həvəslənirlər. Məktəb mühitindən ayrılmaq da onlara yaxşı təsir göstərir. Bizim üçün də burada daha yaxşıdır. Əlimizin altında hər bir material var. Diaqnostik vəsaitlər - artterapiya, qum terapiyası üçün lazım olan ləvazimatları götürüb məktəbə getmək çətinlik yaradır".

### Məktəblinin dostu üçün testlər

Nilufər İsmayılova aralarına sonradan qatılıb. "Məktəblinin dostu" layihəsi Bakı məktəblərində fəaliyyətini genişləndirdikcə, onlara da, məktəblinin dostlarına da tələbat artıb. Artan tələbatın təmin edilməsi üçün də əsas yük psixoloqların üzərinə düşür. Axı, şagirdlərin psixoloji durumu, münasibətləri ilə yanaşı, onlarla işləyəcək məktəblinin dostunun kim olacağı məhz psixoloqların hazırladığı testlərlə müəyyənləşdirilir.

Hər 500 şagirdə 1 məktəblinin dostu düşdüyünü, məktəblinin dostunu tələb edən məktəblərin və valideynlərin sayının artdığını nəzərə alsaq, layihənin genişlənəcəyi şübhə doğurmur. Həmin gəncləri seçmək də məhz Psixoloji Mərkəzin psixoloqlarının işidir. Elə ilk 112 nəfəri də məhz onlar seçib. Necə?

"Məktəblinin dostu" layihəsinin psixoloqları layihənin icrasından əvvəl başlayıb işə. Seçim mərhələsində istifadə olunan testləri məhz onlar hazırlayıblar. Aydan Əzimzadə deyir ki, məktəblinin dostu olacaq namizədə təqdim edilən test suallarından 10-u sırf psixolojidir. Həmin suallarla namizədin şəxsi xüsusiyyətlərini müəyyənləşdirib, konkret situasiyada necə davranacaqlarını təyin etməyə çalışıblar.

Beləliklə, əvvəlcə həmin testlərin cavabları təhlil olunub. Növbəti mərhələdə məktəblinin dostları müsahibəyə dəvət ediliblər. Onlara fərqli situasiyalardan çıxış yolları tapmaq tapşırılıb. Aydan Əzimzadənin sözlərinə görə, bu mərhələdə də bəzi psixoloji meyarlar var. Üçüncü mərhələdə seminar və təlimlər təşkil olunub. Ünsiyyət psixologiyası, konfliktologiya, uşaq psixologiyası, autizmli, özünəqapanan, yaxud intihara meyilli uşaqlarla iş üzrə təlimlər təşkil edilib. Təlimlərin də nəticəsi testlə müəyyənləşdirilib və uğurla keçən namizədlər işə başlayıblar. Qeyd edək ki, məktəblinin dostları artıq 124 nəfərdir.

### Məktəblilərin psixoloji problemləri: yaş amili

Məktəbdə çox problem var. Bu da təbiidir. Müxtəlif ailələrdən gələn, ayrı-ayrı tərbiyə üsulları ilə yetişdirilən yüzlərlə uşağın təhsil və tərbiyə aldığı mühitdən söhbət gedir. Burada problem də olacaq, çıxılmaz durum da.



Aydan Əzimzadə



Nilufər İsmayılova



Mehriban Verdiyeva



Ülviyyə Şahbazova

Məktəblilərin problemləri yaş qruplarından asılı olaraq dəyişir. İbtidai sinifdə, orta siniflərdə və yeniyetmələrdə ortaya çıxan problemlər bir-birindən kəskin fərqlənir. Odur ki, psixoloqlar problemə diaqnoz qoyarkən ilk növbədə uşaqların yaşını nəzərə alırlar.

Məktəblinin dostlarının psixoloqları yaşa görə problemləri xarakterizə edərək deyirlər ki, ibtidai siniflərdə ilk növbədə məktəbə adaptasiya problemləri ola bilər. Qorxular, hiperaktivlik, aqressiya, inkişafdan geri qalmaq da ibtidai sinif şagirdlərində müşahidə olunur. Psixoloq Aydan Əzimzadənin sözlərinə görə, psixoloqların işinə ibtidai siniflərdə daha çox ehtiyac yaranır: "Yeni tədris ili başlananda ən böyük problemimiz məktəblilərin valideyni olmadan sinfə girməməsi, sinifdə oturmaq istəməməsidir. Bir neçə həftə məktəbə adaptasiya oluna bilməyəndə onlara əlavə konsultasiyalar təyin edirik".

Artıq IV sinif şagirdi olan Banu Şahbazova bu mərhələni arxada qoyub. Hazırda məktəbdə bir problemi yoxdur. Nə müəllimindən şikayətçidir, nə də şagird dostlarından.

Ancaq bu o demək deyil ki, onun bundan sonra da problemi heç olmayacaq. Sinif adladıqca gözünə pis görünənlər mütləq çıxacaq. Elə özünün də kaprizləri meydana gələcək. Psixoloqların fikrincə, orta siniflərdə uşaqlar nə böyük, nə də balacadırlar. Bu mərhələdə onlarda özünüqiymətləndirmə formalaşır. Nəticədə yaşıdları ilə münaqişələr tez-tez təkrarlanır. Özünəqapanma da bu yaş qrupunda ən çox rast gəlinən haldır. Məsələn, VII sinif şagirdi Əli Quliyev artıq psixoloqlardan dəstək alıb: "Fikrim dərslərdən yayınırdı. Oxumaq istəmirdim. Hər fürsətdə qaçıb dostlarımla oyunlar oynayırdım. Məktəblinin dostları və psixoloqların köməyi ilə artıq diqqətimi toplaya, dərslərimə hazırlaşa bilirəm. İndi qiymətlərim də yaxşılaşıb".

**Psixoloq Aydan Əzimzadənin sözlərinə görə, psixoloqların işinə ibtidai siniflərdə daha çox ehtiyac yaranır: "Yeni tədris ili başlananda ən böyük problemimiz məktəblilərin valideyni olmadan sinfə girməməsi, sinifdə oturmaq istəməməsidir. Bir neçə həftə məktəbə adaptasiya oluna bilməyəndə onlara əlavə konsultasiyalar təyin edirik".**

Əlixandan soruşsanız, deyəcək ki, o, məktəbdə ən ağır məhrumiyyətlərə qatlanıb. Onu bu cür düşünməyə vadar edən nədir, sizcə? Sinif adladıqca uşaqların artan kaprizləri, bir-birinin davranışını, görünüşünü, hətta hər kəlməsini ələ salan münasibəti. Sinif yoldaşlarının təzyiqi artdıqca, artıq IX sinif şagirdi olan Əlixan Bədirlinin girdiyi münaqişələrin sayı da artıb. Sinif yoldaşları ilə, özü demiş, o qədər sıxıntı yaşayıb ki, psixoloqla söhbət etməyə daxili tələbat hiss edib. Bu barədə valideynlərinə də xəbərdarlıq edərək, onu psixoloqa aparmalarını xahiş edib: "Mənim sinifdə çox problemim olub. Yoldaşlarım məni ələ salırlar. Mənə sataşanlara cavab verirəm, söhbət böyüyür. Bunda özüm günahkarammı, bilmirəm. Bu sualın cavabını axtarmışam. Ancaq tapa bilməmişəm. Suallarıma cavab tapmaq üçün psixoloqla söhbət etməyə həmişə ehtiyac duymuşam. Ancaq bunu edə bilməmişəm".

İndiyədək heç vaxt dostu olmayan Əlixan yoldaşlarından çəkdiyi sıxıntılara baxmayaraq, gələcəyi ilə bağlı xəyallar qurur: "Uşaqlıqdan bədii sənətə çox marağım olub. Böyüyəndə aşbaz olmaq istəyirəm".

Artıq yeniyetməlik çağına qədəm qoyan Əlixan Bədirli kimi yüzlərlə məktəblinin problemləri yuxarı siniflərə gəldikcə artacaq, xaraktercə kəskinləşəcək. Axı, yeniyetməlik dövrüdür. Bu dövrdə olan uşaqların problemləri müxtəlifliyi, hətta nisbətən kəskinliyi ilə fərqlənir. Zərərli vərdişlərə meyillilik, davranış pozuntuları, valideyn-uşaq münasibətlərinin pozulması məhz bu yaş mərhələsinin ortaya çıxardıqlarıdır. Aydan Əzimzadə deyir ki, dərs prosesini pozan, aqressiv, təşvişli, inkişafında geriləmə müşahidə olunan uşaqlar, o cümlədən sinif yoldaşlarıyla problem yaşayan, yaxud imtahanqabağı stress yaşayan yeniyetmələrin də sayı kifayət qədər çoxdur.

Psixoloq Mehriban Verdiyevanın fikrincə, yeniyetməlik dövrü mənliyin formalaşdığı dövrdür: "Bunu nəzərə alaraq onlara maarifləndirici təlimlər keçirik. Həmin təlimlərdə məktəblilər öz problemlərini müəyyən edə və fərdi qaydada onun üzərində işləyə bilirlər. Bu, qrup şəklində də mümkündür, hətta valideynlərlə birgə də edirik. Ümumiyyətlə, valideynlərlə keçirilən seminarların əsas mövzusu uşaq psixologiyası, uşaqlarla doğru ünsiyyətin necə qurulması, aqressiv, yaxud qapalı uşaqla necə davranılması, necə mükafatlandırılması, yaxud necə cəzalandırılması ilə bağlı olur".

M.Verdiyeva ötən dərs ilində qarşılaşdığı faktlardan biri ilə ailə vəziyyətinin VII sinif şagirdində yaratdığı reaksiyaya diqqət çəkir: "Şagirdimizdə anası ilə atasının ayrılması nəticəsində müşahidə edilən psixoloji dəyişiklikdən artıq bütün məktəb kollektivi xəbər tutmuşdu. Belə ki, əvvəl daha yaxşı oxuyan şagirdin qiymətləri birdən-birə aşağı düşməyə başladı, diqqətini toplaya bilmirdi. Tez-tez isterik vəziyyətlərə düşürdü. Məlum oldu ki, boşanan valideynlərdən biri onu görməyə məktəbə gəlir və bu görüş şagirddə gərginlik yaradır. Valideynini görmək istəmir, o isə israrla məktəbə gəlirdi. Bu da məktəblidə sərt reaksiyalara səbəb olurdu. Ana-bala ağlayırdılar. Növbəti gün şagird məktəbə gəlmək istəmirdi. Məktəblinin dostlarının bu barədə xəbərdarlığından sonra biz valideynlərin də icazəsi ilə şagirdlə işləməyə başladıq. Əsas məqsəd o idi ki, məktəblini ailəsinin mövcud durumuna alışdıraq. Alışdırdıq da. Ona anasını, yaxud atasını görəndə normal reaksiya verməyi öyrətdik".

### Ən böyük çətinliyimiz...

Bu minvalla məktəblinin dostunun məktəbə getdiyi gündən bu yana psixoloqlara 693 fərdi müraciət daxil olub. Həmin müraciətlər əsasında psixoloji dəstək, diaqnostika və korreksiya işləri aparılıb. Ailə terapiyası, valideynlərlə seminarlar və təlimlər keçirilib. Ancaq bu qədər məktəbliyə və onların valideynlərinə dəstək vermək elə də asan olmayıb. Psixoloqların qarşısına xeyli çətinlik çıxır. Bu çətinliklərdən danışan psixoloq Nilufər İsmayılova deyir ki, valideynlərin əlçatmaz olmağı ən böyük problemləridir: "Şagirdlərdə özünəxəsarət problemi ilə qarşılaşırıq. Ancaq bu qədər ciddi problemlə üz-üzə olan şagirdin valideynini məktəbə gətirmək ən böyük problemimizə çevrilir. Elə valideynlər var ki, tez reaksiya verir, problemi həll etmək üçün bizimlə birgə hərəkət edirlər. Bu halda uşaqların problemini çözməyimiz də daha az zaman alır".

Psixoloqa münasibət də onları narahat edən, problem yaradan amillərdəndir: "Təəssüf ki, "Mənim uşağım dəlidir ki, onu psixoloqa yönləndirirsiniz", - deyənlər az deyil. Burada əsas işimiz valideynə psixoloqun kim olduğunu, hansı işlərlə məşğul olduğunu göstərməkdir. Valideynlər bilməlidir ki, psixoloq sağlam insanlarla işləyir, dərman yazmır. Çalışırıq söhbətlərimizlə psixoloqa güvənmələrini təmin edək. Buna nail oluruq da. Sonradan qəbul edirlər ki, psixoloq varsa, niyə də onun xidmətindən istifadə etməsinlər".

Valideyn Ülviyyə Şahbazova da valideynlər arasında bu münasibətdən danışıb: "Mən həm müəlliməm, həm də valideyn. Bir müəllim kimi hesab edirəm ki, indi şagirdlərdə aqressiya çox güclüdür. Bəzən bu, elə formada və elə şagirddə özünü göstərir ki, təəccüblənməyə bilmirik. Valideyn kimi isə hesab edirəm ki, bizim özümüzün psixoloqla məsləhətləşməyimiz vacibdir. Ümumiyyətlə, ölkəmizdə psixoloqlara normal münasibət formalaşmayıb. Psixoloqlar məktəbimizə gələndə qabağa düşdüm ki, ilk mənim oğlumla danışsınlar. Bu, xarici ölkələrin təcrübəsində də geniş yayılıb. Mentalitetlə bağlı uşaqlar bəzən sözünü valideynlərinə deyə bilmir. Müəyyən hisslər var ki, yaşasaq da, özümüzü gizlətmək məcburiyyətində hiss edirik. Odur ki, bu məqamda psixoloqların məsələyə qarışması ən doğrusudur. Bu o deməkdir ki, uşaqlarımız daxilindəki təlatümlə baş-başa qalıb çıxılmaz duruma düşmür, psixoloqlar onlara düzgün istiqamət göstərirlər. Hətta düşünürəm ki, uşaqlara psixoloq məsləhəti mütləq lazımdır. Məsələn, oğlumla dost münasibətimizə baxmayaraq, müəyyən yaş mərhələsində onun dərslərindən qopduğunu müşahidə etdim. Bu zaman psixoloqlar köməyimə gəldi. Etiraf edim ki, psixoloqla söhbətlərindən sonra onda çox böyük dəyişikliklər oldu. Bu, hər uşağın mütləq psixoloqa ehtiyacı olduğu anlamına gəlmir. Ancaq hər hansı problem varsa, onda psixoloqla danışmaqdan heç kimə ziyan gəlməz".

### Suallarınıza psixoloqlarla birgə cavab axtarın

Boşuna deməyiblər ki, uşaq böyüdükcə dərd-səri də özüylə böyüyür. Fərddən şəxsiyyətə gedən yol, insanın məninin formalaşdığı mərhələ heç də asan olmadığından psixoloqlara tələbat da artır, onların qarşısında duran tələblər də. Aydan Əzimzadə, Nilufər İsmayılova və Mehriban Verdiyeva bu tələbatı ödəməyə hazırdır, təki məktəblilər yaranan suallarına məhz onlarla birlikdə cavab axtarsınlar.

# İki olimpiadadan 6 medal

## Şagirdlərimiz medalların sayını artırırlar

19-29 iyul tarixlərində Çexiya və Slovakiya respublikalarında şagirdlər arasında keçirilən 50-ci Beynəlxalq Kimya Olimpiadasında (İCHO 2018) məktəblilərimiz növbəti uğura imza atıblar. Azərbaycanı olimpiadada 4 şagirdimiz təmsil edib.

Bakı şəhər akademik Zərifə Əliyeva adına liseyin 11-ci sinif şagirdi Ramil Babazadə olimpiadanın gümüş, Bakı şəhər 160 nömrəli klassik gimnaziyanın 11-ci sinif şagirdi Nəriman Mirişov və Lənkəran şəhər 4 nömrəli humanitar təmayüllü liseyin 11-ci sinif şagirdi Turan Məmmədli bürünc medallarını qazanıblar.

Kimya-biologiya təmayüllü Respublika liseyinin 10-cu sinif şagirdi Əli Əliyev olimpiadanın Həvəsləndirici sertifikatına layiq görülüb.

26 iyul-1 avqust tarixlərində Rusiya Federasiyasının Kazan şəhərində Yeniyetmələrin Avropa İnformatika Olimpiadası (EJOİ 2018) keçirilib. Rusiya, Belçika, Finlandiya, Macarıstan və bir çox Avropa ölkələrinin təmsil olunduğu olimpiadaya azərbaycanlı şagirdlər də qatılıb.

4 nəfərdən ibarət komanda ilə bu mötəbər elm yarışında iştirak edən məktəblilərimiz medalla qayıdıblar. Belə ki, Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 9-cu sinif şagirdləri Abutalıb Namazov və İbrahim Tağızadə, Lənkəran şəhəri 4 nömrəli Humanitar liseyin 9-cu sinif şagirdi Murad Eynizadə bürünc medallara layiq görülüblər.

Təhsil Nazirliyinin beynəlxalq olimpiadalara hazırlıq prosesini təkmilləşdirməsi və diqqət mərkəzində saxlaması şagirdlərin müvəffəqiyyətli çıxışlarına səbəb olur. Nazirlik tərəfindən Fizika, riyaziyyat və informatika təmayüllü, Kimya-biologiya təmayüllü liseylərdə yaradılmış Beynəlxalq olimpiadalara hazırlıq mərkəzlərində şagirdlər olimpiadalara hazırlıq prosesinə cəlb edilirlər.

Qeyd edək ki, sözügedən olimpiadada iştirak edən şagirdlər Fizika, riyaziyyat və informatika təmayüllü liseyin nəzdində yaradılmış Beynəlxalq olimpiadalara hazırlıq mərkəzində xüsusi proqram əsasında hazırlıq prosesindən keçiblər.

2014-cü ildən etibarən Təhsil Nazirliyinin müvafiq əmri əsasında yaradılmış mərkəzlərdə artıq 4 ildir ki, şagirdlər beş müxtəlif fənn - riyaziyyat, fizika, kimya, biologiya və informatika üzrə iki fərqli yaş qrupu olmaqla hazırlıqlara cəlb olunurlar. 200-dən çox şagirdin dinləyici olduğu bu mərkəzlərə müxtəlif dövlət və özəl məktəblərin şagirdləri dəvət edilir. Tədris ilinin əvvəlində namizəd şagirdlərin seçimi ilə müəyyən edilən şagirdlər ali məktəblərdən, ayrı-ayrı institutların alim və professorlarının, eləcə də əcnəbi mütəxəssislərin dərslərində iştirak edirlər. Olimpiadalara hazırlıq mərkəzləri yerli və ölkədən kənarda bir neçə ali məktəblə sıx əməkdaşlıq yaradaraq, nəzəri və praktiki dərslərin hazırlığı prosesini təşkil etməkdədir.